ƏLİYEV-ƏRDOĞAN GÖRÜŞÜNDƏKİ
İKİ MÜHÜM DETAL

İlham Əliyevlə Rəcəb Tayyib Ərdoğan müzakirələr zamanı yenidən Türk Dövlətləri Təşkilatı amilini gündəmə gətirdilər. Bu da regional təxribat planlarını eroziyaya məruz qoyan alternativ platforma kimi qiymətləndirilə bilər.



Prezident İlham Əliyevin andiçmə mərasimindən sonra ilk rəsmi səfərini Türkiyəyə etməsi bir daha Azərbaycanın Ankara ilə Bakı arasındakı tarixi-siyasi və qarşılıqlı hörmətə əsaslanan genişspektrli əlaqələrə vurğu etdiyini göstərir.

Sözsüz ki, İlham Əliyevin Türkiyə Prezidenti ilə görüşündən sonra əlaqələrin irəliyə aparılması prioritet olaraq qalacaq.
Ancaq budəfəki prioritetlər əvvəlki illərdəkindən fərqli olaraq real ölçüdə daha böyük bir gündəliyin praktiki öhdəliklərini göstərir.

SƏHİFƏ 3-də



ÇƏTİN OLDU, AMMA BACARDIQ

Ağdamın "Qarabağ" klubu Avropa Liqasının 1/8 finalına vəsiqəni təmin etdi. Özü də tarixində ilk dəfə. Başqa sözlə desək, ağdamlılar Azərbaycan futbol tarixini yazmaqda davam edirlər.

SƏHİFƏ 16-da

'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

ÜÇ ƏSRİN QƏZETİ

Kaspi

24 FEVRAL ŞƏNBƏ 2024 I 07 (4158) Qiyməti - 40 qəpik www.kaspi.az





FRANSA SÜLH PROSESİNİ ƏNGƏLLƏYİR

Başa çatmaqda olan həftədə Ermənistanla Fransa arasında hərbi sahədə əməkdaşlıqla bağlı sazişlər imzalanıb. Rəsmi Bakı cavab olaraq bəyan edir ki, bu addımlar bölgədəki sülh prosesinə xidmət etmir.

SƏHİFƏ 2-də

DÜNYADAN XOCALI SOYQIRIMINA ƏDALƏTLİ MÜNASİBƏT GÖZLƏYİRİK

"ƏSRİN FACİƏSİ"NDƏN 32 İL ÖTÜR

2023-cü ilin 19-20 sentyabr tarixlərində Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Xocalı da daxil olmaqla, bütün ərazilərimizdə suverenliyimiz bərpa olundu. Xocalı soyqırımının qisası alındı.



XOCALIDA BAYRAĞIMIZ DALĞALANIR

Lakin bu il fərqlidir. Çünki artıq Xocalı özü azaddır. Soyqırımı qurbanlarının illərlə haray çəkərək ruhlarının sərgərdan dolaşdığı bu torpaqlar düşmən işğalından təmizlənib. Xocalıda üçrəngli bayrağımızın dalğalanması bəlkə də bu əməliyyatların mənəvi cəhətdən kulminasiya nöqtəsi idi.

ONLAR EVLƏRİNƏ QAYIDACAQLAR


Bu il Xocalı soyqırımının qurbanlarını elə Xocalıda anacağıq. 32 ildən sonra Xocalı sakinləri bu il öz doğma el-obalarına qayıdacaqlar. Bu müjdəli xəbəri ilk dəfə Prezident İlham Əliyev 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü ilə bağlı xalqa müraciətində verib.

SƏHİFƏ 4-də

AZƏRBAYCAN ƏDALƏTİ ÖZÜ TƏMİN ETDİ

Doğrudur, Azərbaycan ədaləti özü təmin edib. İşğal faktına son qoyub, BMT qətnamələrinin müddəalarını öz gücünə yerinə yetirib. Lakin bu, dünyanın Xocalıda baş verənləri, yaşanan dəhşət və vəhşəti gözardı etməyinə əsas vermir.







İRAN NÖVBƏTİ SİYASİ TƏLATÜM ƏRƏFƏSİNDƏ

İranda seçki öncəsi vəziyyət dünyanın diqqətindədir. Mühafizəkar qanad siyasi sahədə total təmizləmə aparıb. Filtrdən keçməyənlər arasında keçmiş prezident Həsən Ruhani də var.

SƏHİFƏ 7-də



TURİZMDƏ ORTAQ MARŞRUTLAR

Azərbaycanla Türkiyə arasında ortaq turizm marşrutlarının yaradılması çoxdan müzakirə edilsə də, hələlik real nəticə yoxdur. Mütəxəssislər bu sahədə böyük potensialın olduğu qənaətindədirlər.

SƏHİFƏ 13-də



İNTERNETİMİZİN SÜRƏTİNİ AZALDAN SƏBƏBLƏR

Bir çoxlarımız bəzən istifadə etdiyimiz internetin sürətindən, yaxud davamlılığından şikayət edirik. Ekspertlər bildirirlər ki, bu məsələdə problem yaradan əsas məqamlardan biri də "Wi-Fi" qurğularıdır.

SƏHİFƏ 14-də



ÜÇÜNCÜ BAHARIN ƏYLƏNCƏSİ

İnsan yaşla bağlı təqaüdə çıxanda onun sosial vəziyyəti dəyişir. Bu, çox vaxt yaşlıların psixoloji vəziyyətlərinə mənfi təsir göstərir. Ona görə də onları bu durumdan çıxarmaq üçün müxtəlif layihələr icra olunur.

SƏHİFƏ 15-də



Birrəqəmli inflyasiya realdırmı?

SƏHİFƏ 6-da



Britaniyada müəllim işləyən azərbaycanlı

SƏHİFƏ 8-9-da



Ermənilər təcrübə dovşanı rolunda

SƏHİFƏ 5-də



Pomidor ixracını azaldan səbəblər

SƏHİFƏ 12-də



Az işləyim, çox qazanım

SƏHİFƏ 10-da



Xocalıda kütləvi məzarlıq aşkarlanıb

Xocalı rayonunda ən azı dörd nəfərin basdırıldığı kütləvi məzarlıq aşkar edilib. Bu barədə "Report"a Baş Prokurorluğun Mətbuat xidmətindən məlumat verilib. Bildirilib ki, işğaldan azad edilmiş Xocalı şəhərinin mərkəzində (keçmiş Xalça Fabrikinin yaxınlığında) həyata keçirilən əsaslı bərpa-quruculuq işləri çərçivəsində aparılan qazıntı işləri zamanı basdırılmış vəziyyətdə kütləvi insan qalıqlarının aşkar olunması barədə fevralın 21-də Xocalı rayon prokurorluğuna məlumat daxil olub:

"Baş Prokurorluğun peşəkar əməkdaşları hadisə yerinə ezam olunmaqla, Səhiyyə Nazirliyinin "Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi" Publik Hüquqi Şəxsi, Azərbaycan Milli Elmlər Akademiyası, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası və Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Azərbaycan Nümayəndəliyinin əməkdaşlarının iştirakı ilə hadisə yerinə baxış keçirilərək, aşkar edilmiş sümük fraqmentləri ekspertiza və laborator müayinələrin aparılması məqsədilə müvafiq qaydada götürülüb, eləcə də digər zəruri prosessual hərəkətlər yerinə yetirilib".

Məlumata görə, hazırkı vaxtadək keçirilən prosessual hərəkətlər nəticəsində ərazidə aşkarlanmış insan qalıqlarının ən azı 4 nəfər (onlardan 1 nəfərin azyaşlı, yəni 4-5 yaşlı şəxsə məxsus olması ehtimal edilir) şəxsə məxsus olması, onların işgəncələrə məruz qalması, əllərinin kəndirlə bağlanması və xüsusiyyətlərinə görə ən azı 25 il əvvəl basdırılması müəyyən edilib.

Hazırda hadisə yerinin tam müayinə edilməsi istiqamətində işlər davam etdirilir.

Faktla bağlı Baş Prokurorluğun Kriminalistika və informasiya texnologiyaları idarəsində araşdırma aparılır. Bildirilib ki, axtarış işləri tam yekunlaşdıqdan və müvafiq ekspertiza nəticələri müəyyən olunduqdan sonra ictimaiyyətə əlavə məlumat veriləcək.

Fransa sülh prosesini yenidən əngəlləyir

Paris Ermənistana uzaqmənzilli raketlər verməyi planlaşdırır. İki ölkə arasında hərbi sahədə əməkdaşlıqla bağlı yeni sazişlər imzalanıb. Rəsmi Bakı cavab olaraq bəyan edir ki, bu addımlar bölgədəki sülh prosesinə xidmət etmir.





AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Fransanın Cənubi Qafqazda sülh səylərini davamlı olaraq əngəlləmək cəhdləri səngimir. Makron hökuməti növbəti dəfə Azərbaycan və Ermənistan arasında aparılan ikitərəfli danışıqlardan sonra vəziyyəti gərginləşdirmək üçün İrəvana özünün yeni direktivlərini diktə edir. Bu prosesdə ən böyük narahatlıq isə İrəvanın silahlandırılması prosesinin sürətləndirilməsidir.

PARİS İRƏVANA UZAQMƏNZİLLİ RAKETLƏR DƏ VERƏCƏK?

Ermənistanın müdafiə naziri Suren Papikyan və fransalı həmkarı Sebastyan Lekornu hərbi əməkdaşlığa dair sənədlər paketi imzalayıblar. "Report" xəbər verir ki, digər müqavilə müdafiə nazirinin müavini Karen Brutyanla adı açıqlanmayan fransız şirkətinin nümayəndəsi arasında imzalanıb. Sazişlərin detalları açıqlanmayıb. Bundan əlavə, Paris İrəvanda hərbi mövcudluğunu da artırmaq niyyətindədir.


Azay Quliyev

"Fransanın Ermənistanda daimi hərbi məsləhətçisi olacaq". Bu barədə İrəvanda səfərdə olan Fransanın müdafiə naziri Sebastyan Lekornu erməni həmkarı Suren Papikyanla birgə keçirdiyi mətbuat konfransında deyib. Onun sözlərinə görə, Fransa Ermənistana silahlar göndərib: "Yaxın vaxtlarda "Bastion" zirehli texnikaları da tədarük ediləcək. Lazım olarsa, qısa, orta və uzunmənzilli raketlər də verəcəyik".

S.Papikyan isə bildirib ki, Ermənistanla Fransa arasında hərbi əməkdaşlıq uzunmüddətli xarakter daşıyır.

Bütün bu faktlar rəsmi Bakı tərəfindən kəskin etirazla qarşılanır. Bakı dəfələrlə xəbərdarlıq edib ki, Parisin məlum siyasəti bölgədə sülh səylərinə xidmət etmir.

FRANSANIN ERMƏNİSTANI HƏRBİLƏŞDİRMƏK SİYASƏTİ

Fransanın bölgəmizdəki təxribat xarakterli siyasəti ATƏT Parlament Assambleyasının Vyanada keçirilən qış sessiyasında da qaldırılıb. Azərbaycanın qurumdakı nümayəndə heyətinin rəhbəri, deputat Azay Quliyev bildirib ki, Fransanın siyasəti Cənubi Qafqazda onsuz da kövrək olan sülhə xələl gətirir. O qeyd edib ki, Fransa hökuməti İrəvana silah tədarükü ilə bağlı yeni sövdələşmələr vəd edərək Ermənistanı hərbiləşdirmək siyasəti aparır: "Fransanın bu siyasəti yalnız regionda onsuz da kövrək olan sülh və təhlükəsizliyə xələl gətirir, Bakı ilə İrəvan arasında normallaşma prosesinə ciddi şəkildə mənfi təsir göstərir. Buna görə də belə siyasətə son qoyulmalıdır".

A.Quliyev vurğulayıb ki, fransalı deputatların Azərbaycana qarşı iddiaları əsassızdır və Ermənistanın hərbiləşdirilməsinə dəstək vermək üçün sadəcə bəhanədir.

PAŞİNYAN BERLİNƏ HÖRMƏTSİZLİK EDİR, PARİSİN DİLİ İLƏ DANIŞIR

Qeyd edək ki, Paris tək siyasi müstəvidə yox, həm də informasiya cəbhəsində Azərbaycana qarşı ittihamlar səsləndirərək bölgədəki sülh prosesinə əngəl yaradır. Maraqlıdır ki, Ermənistan baş naziri Nikol Paşinyanın Fransaya səfəri zamanı "France-24" kanalına müsahibəsindəki son bəyanatları da məhz bu siyasətin tərkib hissəsi kimi qiymətləndirilir.

Azərbaycan Xarici İşlər Nazirliyi Ermənistan baş naziri Nikol Paşinyanın "France-24"ə müsahibəsində dediyi fikirləri Fransa tərəfinin sülhə davam edən mənfi təsirlərin göstəricisi kimi qiymətləndirib. Bəyanatda qeyd edilib ki, Almaniya kanslerinin təşəbbüsü ilə liderlər arasında keçirilmiş sonuncu görüşdən sonra Ermənistan tərəfindən bu kimi açıqlamalar verilməsi və bunun üçün məkanın məhz Fransa olaraq seçilməsi, Almaniyanın səylərinə Ermənistan tərəfindən hörmətsizlik olmaqla, Fransa tərəfindən sülh prosesinə davam edən mənfi təsirlərin göstəricisidir.



Xatırladaq ki, N.Paşinyan fevralın 22-də "France 24"ə müsahibəsində Azərbaycana qarşı iddialarla çıxış edib və sülhün təmin olunmamasına görə rəsmi Bakını ittiham edib.

Əliyev-Ərdoğan görüşündəki iKi MÜHÜM DETAL



İlham Əliyevlə Rəcəb Tayyib Ərdoğan müzakirələr zamanı yenidən Türk Dövlətləri Təşkilatı amilini gündəmə gətirdilər. Bu da regional təxribat planlarını eroziyaya məruz qoyan alternativ platforma kimi qiymətləndirilə bilər.



AQŞİN KƏRİMOV

Prezident İlham Əliyev andiçmə mərasimindən sonra ilk rəsmi səfərini Türkiyəyə etdi. Bu, bir daha Azərbaycanın strateji müttəfiqi Türkiyəyə verilən dəyərə, Ankara ilə Bakı arasındakı tarixi-siyasi və qarşılıqlı hörmətə əsaslanan genişspektrli əlaqələrə vurğu edir.

Sözsüz ki, İlham Əliyevin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşündən sonra əlaqələrin irəliyə aparılması, strateji müstəvidə daha da dərinləşdirilməsi prioritet olaraq qalacaq.

Ancaq budəfəki prioritetlər əvvəlki illərdəkindən fərqli olaraq real ölçüdə daha böyük bir gündəliyin praktiki öhdəliklərini göstərir.

AZƏRBAYCANIN REGİONAL SIÇRAYIŞI

Ən azından nəzərə almaq lazımdır ki, İlham Əliyevin növbədənkənar prezident seçkisindəki qələbəsi böyük tarixi regional sıçrayışa keçidi stimullaşdırır.

Bu stimullaşdırma regionda sabitliyi pozmaq planı olan qüvvələrə qarşı növbəti mərhələlərdə mühüm strateji qələbəni təmin edən faktordur. Lakin bu amilin etibarlı, möhkəm tellərlə bərkidilməsi və "alınmaz qala"ya çevrilməsi üçün Azərbaycan-Türkiyə müttəfiqliyində yeni səhifələr vərəqlənməlidir. Bu, Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin təmin edilməsindən sonra ortaya çıxan mühüm çağırışdır. Ona görə də deyə bilərik ki, İlham Əliyevin Türkiyəyə səfər edərək Rəcəb Tayyib Ərdoğanla müzakirələri iki dövlətin müttəfiqliyində sarsılmaz birliyin miqyasını ifadə edir.

TƏHSİL REGİONAL TƏSİR QÜVVƏSİ ROLUNDA

Həmin miqyasda iki mühüm detala vurğu edildiyini görmək mümkündür. Birincisi, İlham Əliyevin səfəri zamanı iki ölkə arasında Türkiyə-Azərbaycan Universitetinin yaradılması barədə Anlaşma Memorandumu imzalandı.

Təhsil hər bir ölkənin beynəlxalq indeksinə təsir edən böyük və mürəkkəb sahədir. Təhsilin müasir siyasətdə və strateji konsepsiyalardakı yeri əlahiddə funksiyalara malikdir. Çünki təhsil beynəlxalq arenaya ən müasir standartlarla çıxışı, yad ideoloji təsirlərə qarşı intensiv qrafiki və əhatəli akademik yanaşma çərçivələrini müəyyən edir. Deməli, Azərbaycanla Türkiyənin birgə universitet yaratması qərarı iki ölkə arasındakı inteqrasiyanın daha da sıxlaşdırılmasına yardımçı olmaqla yanaşı, regional təsir qüvvəsi roluna da malik olacaq.

Təsadüfi deyil ki, İlham Əliyev fevralın 14-də andiçmə mərasimində Türk Dövlətləri Təşkilatının (TDT) qlobal səhnədəki yeri barədə önəmli mesajlar verdi. Həmin yerin qarşıya doğru irəlilədilməsi, geosiyasi və strateji şəkilləndirmədəki mövqelərinin qabağa çəkilməsi üçün bir sıra çağırışlar mövcuddur. Təhsil həmin çağırışları icra edir, TDT çərçivəsində inteqrasiyanı təşviq edərək ona yeni rəng verir.

İkincisi, İlham Əliyevlə Rəcəb Tayyib Ərdoğan mətbuata birgə bəyanatlarında təhlükəsizliyə dair mövqelər səsləndirərək bir daha iki ölkənin bir-birinin yanında olduğunu nümayiş etdirdilər. Bu bəyanatlar Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması prosesinə məxfi gündəliklə sızıb vaxt qrafikini uzadan kənar qüvvələrə qarşı "möhürlü mövqeləri" göstərir.



Bu amil regionda hazırlanan təhlükəli sınaq balonlarına qarşı reaksiya müddətini tezləşdirir və İrəvanı Bakının şərtləri əsasında sülh müqaviləsinə doğru tələsdirir. Cənab Ərdoğanın bu baxımdan Ermənistanı sülh müqaviləsini imzalamağa dəvət etməsi Zəngəzur dəhlizi layihəsinin işığında xüsusi əhəmiyyət kəsb edir. Ermənistan regional gərginliyi yüksəldən ipə deyil, Azərbaycanla Türkiyənin təqdim etdiyi gündəliyə əsaslanan platformaya enməlidir.

REGİONAL ƏMƏKDAŞLIQDA YENİ ÜFÜQLƏR AÇMAQ PRİORİTETLƏRİ

Təəccüblü gəlmir ki, Azərbaycanla Türkiyənin geosiyasi reallıqlardakı güclü mövqeyi bir çoxlarını, o cümlədən Fransanı narahat edir.

Fransanın Cənubi Qafqazda aktiv fazada Azərbaycana qarşı təxribatların tərtibatçısı rolunda çıxış etməsi onun geosiyasi reallıqları təcili dəyişdirmək planından xəbər verir. Söz yox ki, Fransanın geosiyasi spektrdəki belə tutumu Cənubi Qafqazdakı rəqabəti eskalasiya səviyyəsinə qədər alovlandırır.

Bu alov Yaxın Şərqdə genişlənən eskalasiya bucaqları, davam edən Rusiya-Ukrayna müharibəsinin geosiyasi təsirləri ilə yüksəyə qalxa bilər. Parçalanmış ümidlərlə Azərbaycana qarşı cəbhənin gülləsinə çevrilmək istəyən Ermənistanın mövqeyindəki çoxbaşlılıq vəziyyəti daha da kövrəkləşdirir.

Təbii ki, Azərbaycanın belə regional çətinliklərlə dolu situasiyada müdafiə qüdrətini gücləndirmək və regional əməkdaşlıqda yeni üfüqlər açmaq prioritetləri başadüşüləndir.

İlham Əliyevin andiçmə mərasimində TDT-nin güclü potensialına diqqət çəkməsi fonunda həmin mənzərə aydınlaşır.

İlham Əliyevlə Rəcəb Tayyib Ərdoğan müzakirələr zamanı yenidən TDT amilini gündəmə gətirdilər, bu da regional təxribat planlarını eroziyaya məruz qoyan alternativ platforma kimi qiymətləndirilir.

Deməli, Azərbaycan və Türkiyə TDT-nin dünya ticari-iqtisadi arteriyasındakı rolunu təşkilatın geosiyasi qüdrəti ilə tamamlamaqda maraqlıdırlar.

“ƏSRİN FACİƏSİ”NDƏN 32 İL ÖTÜR

2023-cü ilin 19-20 sentyabr tarixlərində Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Xocalı da daxil olmaqla, bütün ərazilərimizdə suverenliyimiz bərpa olundu. Xocalı soyqırımının qisası alındı. Lakin düşməndən fərqli olaraq, bu qisas dinc, müdafiəsiz əhalidən deyil, döyüş meydanında alındı.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

İşğal dövrünün ən qaranlıq səhifələrindən biri olan, “Əsrin faciəsi” adını alan Xocalı soyqırımının 32-ci ili tamamlanır. Bu illər ərzində xalqımız erməni terrorçuları və onların havadarlarının törətdikləri vəhşiliklərin qurbanlarını dərin hüzn və ehtiramla anır.

XOCALI ÖZÜ AZADDIR

Lakin bu il fərqlidir. Çünki artıq Xocalı özü azaddır. Soyqırımı qurbanlarının illərlə haray çəkərək ruhlarının sərgərdan dolaşdığı bu torpaqlar düşmən işğalından təmizlənib. Antiterror tədbirləri nəticəsində separatizm, terror yuvalarının məhv edilməsinə aparan yolda Xocalıda üçrəngli bayrağımızın dalğalanması bəlkə də bu əməliyyatların mənəvi cəhətdən kulminasiya nöqtəsi idi. Çünki Xocalı soyqırımını törədənlər illərlə bunu milli mübarizə ruhumuzun qırılma anı kimi təqdim edirdilər.

QİSAS DÖYÜŞ MEYDANINDA ALINDI

Amma düşmən yaşlı, qadın, uşaq demədən qətlə yetirdiyi, bəşəri dəyərləri tapdalayaraq insanlıq cinayəti sayılan əməllərə yol verdiyi “Əsrin faciəsi” ilə istəyinə nail ola bilmədi. Əksinə, Xocalı soyqırımı başda olmaqla, qısa müddətdə ardıcıl faciələr yaşayan Azərbaycan xalqı bir olmağı, diri olmağı bacardı. “Qisas qiyamətə qalmaz” şüarı ilə səbirlə, təmkinlə hədəfə doğru addımladı. Nəhayət 2023-cü ilin 19-20 sentyabr tarixlərində müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Xocalı da daxil olmaqla, bütün ərazilərimizdə suverenliyimiz bərpa olundu. Xocalı soyqırımının qisası alındı. Lakin düşməndən fərqli olaraq, bu qisas dinc, müdafiəsiz əhalidən deyil, döyüş meydanında alındı.

XOCALI SAKİNLƏRİ ÖZ EVLƏRİNƏ QAYIDACAQ

Bu il Xocalı soyqırımının qurbanlarını elə Xocalıda anacağıq. 32 ildən sonra Xocalı sakinləri bu il öz doğma el-obalarına qayıdacaqlar. Bu müjdəli xəbəri ilk dəfə Prezident İlham Əliyev 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü ilə bağlı xalqa müraciətində verib. Lakin bu dəfə onları nə terror, nə də soyqırımı təhlükəsi gözləyir. Çünki Azərbaycan dövləti, ali rəhbərliyi, Silahlı Qüvvələrimiz illər öncə xocalılıların yaşadıqları dəhşətlərin yenidən yaşanmasına əsla imkan verməyəcəklər. Səbirlə, təmkinlə çıxdığımız haqq yolunda əldə etdiyimiz tarixi zəfərlər ölkəmizdə separatizmin, terrorun kökünü birdəfəlik qurudub.



DÜNYANI ƏDALƏTƏ DƏVƏT EDİRİK

Doğrudur, Azərbaycan ədaləti özü təmin edib. İşğal faktına son qoyub, illərdir kağız parçası olmaqdan başqa bir işə yaramayan BMT qətnamələrinin müddəalarını öz gücünə yerinə yetirib. Lakin bu, dünyanın Xocalıda baş verənləri, yaşanan dəhşət və vəhşəti gözardı etməyinə əsas vermir. Bu gün erməni kartından istifadə edərək ölkəmizə müxtəlif təzyiqlər etməyə çalışanlar, ermənidən daha çox erməni olanlar öncə Xocalı soyqırımına ədalətli münasibət sərgiləməlidirlər. Xocalı soyqırımının dünyada tanınması Azərbaycanın xarici siyasətinin mühüm istiqamətlərindən biri kimi müəyyənləşib. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə 2008-ci il mayın 8-dən başlayan “Xocalıya ədalət” beynəlxalq kampaniyası, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsləri, ölkəmizin diplomatik səyləri nəticəsində hazırda onlarla ölkə “Əsrin faciəsi”ni soyqırımı kimi tanıyıb. Çexiya, Bosniya və Herseqovina, Kolumbiya, Honduras, İordaniya, Meksika, Pakistan, Panama, Peru, Rumıniya, Sudan, Cibuti, Qvatemala və Şotlandiyanın qanunverici orqanları, həmçinin ABŞ-nin bir çox ştatı bu istiqamətdə müvafiq qətnamələr qəbul edib. Avropa İnsan Haqları Məhkəməsi 22 aprel 2010-cu il tarixli qərarında Xocalının azərbaycanlılardan ibarət mülki əhalisinin qırılmasını “müharibə cinayətləri və ya insanlığa qarşı cinayətlər kimi qiymətləndirilə bilən xüsusilə ağır əməllər” kimi müəyyən edib.

CİNAYƏT CƏZASIZ QALMIR

Bütün bu qeyd olunanlar Ermənistanın o vaxtkı rəhbərliyinin, suveren ərazilərimizdə separatizmin başında duran və Xocalı soyqırımının əmrini verənlərin məsuliyyətə cəlb edilməsi üçün hüquqi baza yaradır. Hazırda xalqımıza qarşı bəşəri və hərbi cinayətlər törətmiş separatçıların rəhbərlərindən bir çoxu həbs edilib. Xocalı soyqırımının iştirakçıları olanların etirafları aparılan istintaq prosesi ilə sənədləşdirilir, aktlaşdırılır. Lakin məsuliyyətdən qaçıb canını qurtaranlar da var. Onların da tezliklə ədalət məhkəməsində törətdikləri dəhşətli cinayətlərə görə cavab verəcəyi gün uzaqda deyil.

QISA ARAYIŞ

“Əsrin faciəsi” nəticəsində 63-ü uşaq, 106-sı qadın, 70-i qoca olmaqla, 613 Xocalı sakini qətlə yetirilib, 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirib. Erməni daşnaklarının və 366-cı alayın güllələrindən 76-sı uşaq olmaqla, 487 nəfər yaralanıb. 1275 nəfər əsir götürülüb. Əsir götürülənlərdən 150 nəfərinin, o cümlədən 68 qadın və 26 uşağın taleyi bu günədək məlum deyil. Xocalı rayonundan olan 15 min nəfərə yaxın məcburi köçkün Azərbaycanın 52 müxtəlif şəhər və rayonlarında müvəqqəti məskunlaşıblar. 1993-cü ildə ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə fevralın 26-sı tarixi Xocalı soyqırımı günü kimi qəbul olunub.

XOCALI





Ermənistan əhalisi TƏCRÜBƏ DOVŞANI ROLUNDA

Paşinyan hökuməti ölkəsini amerikalılar üçün təcrübə meydançasına çevirib. Pentaqonun ayırdığı bir neçə milyon dollar müqabilində regionun hansı dərəcədə fəlakətə sürüklədiyi göz önündədir.

FUAD ABASOĞLU

ABŞ-nin bəzi "tərəfdaş" ölkələrdə yaratdığı müxtəlif biolaboratoriyalar hər zaman müzakirə mövzusudur. Amma deyəsən, Ermənistan bu məsələdə hər kəsi qabaqlayıb. Bu ölkədə ötən illər ərzində 12 belə laboratoriya fəaliyyət göstərib. Təkcə yaxın dövr ərzində birdən-birə üç laboratoriya işə salınıb. Onlardan biri İrəvanda, biri Gümrüdə, digəri isə İcevanda açılıb. Onlar Pentaqon tərəfindən maliyyələşdirilir.

ERMƏNİ HÖKUMƏTİNİN QAZANCI

Qeyd etmək yerinə düşər ki, referens-laboratoriya qurmaq üçün Ermənistanın Kənd Təsərrüfatı Nazirliyinə 4.1 milyon dollar, Səhiyyə Nazirliyinə isə 9.1 milyon dollar ödənilib. 17 milyon dollar isə bu nazirliklərin balansında yaradılan mərkəzlərin mebel və təchizatı üçün ayrılıb.

Bu yaxınlarda məlum olub ki, ABŞ-nin sayca 13-cü biolaboratoriyası Gümrü şəhərində qurulacaq. Ermənistanın müdafiə naziri Suren Papikyan yanvar ayında Pentaqonla bu məsələ ilə bağlı müqavilə imzalayıb. Yeni laboratoriyanın Gümrü şəhərində, Rusiyanın 102-ci hərbi bazası yaxınlığında qurulması planlaşdırılır. Baş nazir hər nə qədər "bu laboratoriyalar ABŞ-nin dəstəyi ilə qurulsa da, Ermənistanın əmlakı sayılır" desə də, reallıq başqadır.

TƏHLÜKƏ RİSKLƏRİ

Bu laboratoriyaların açılış məqsədi müxtəlif təhlükəli patogenlərə qarşı təhlükəsizliyi təmin etmək, onlardan qorunmaq üçün vaksinlər istehsal etməkdir.

Nəzərə almaq lazımdır ki, bu tip müəssisələr patogen faktorlarla çalışır və müxtəlif virusların, xəstəliklərin yaradılması, ətrafa yayılması riski həddən artıq çoxdur.

QAPALI REJİMDƏ GİZLİ FƏALİYYƏT

Laboratoriyalar qapalı rejimdə fəaliyyət göstərir. Personal sırf amerikalılardan ibarətdir. Yerli səhiyyə təşkilatlarının nümayəndələrinin müəssisə ərazisinə daxil olmağa icazəsi yoxdur. Bir müəssisədə 50-250 nəfər arası personal çalışa bilər. Maraqlıdır ki, Gümrüdə fəaliyyət göstərən biolaboratoriyalardan biri sırf məktəbin yanında inşa edilib. Bu isə bir çox məsələlərdən xəbər verir. Laboratoriyalarda erməni ictimaiyyətindən gizlədilmiş iş aparılır.

MEDALYONUN DİGƏR ÜZÜ

Ermənistandakı ABŞ səfirliyinin əməkdaşları laboratoriyalar mövzusunda bildirirlər ki, bu, geosiyasi məsələlərlə bağlı deyil.





Ermənistan miqrasiyanın yüksək olduğu regionda yerləşir və müxtəlif yoluxucu xəstəliklər riski böyükdür. Beynəlxalq öhdəliklərə görə, isə rəsmi İrəvan bu riskləri vaxtından əvvəl aşkar etməli, onun ölkə daxilində və sərhədlərdən kənarda yayılmasının qarşısını almalıdır. Laboratoriyalar da sırf təcrübə xarakteri daşıyır və bu problemi həll etmək üçün nəzərdə tutulub. Təbii ki, bu, medalyonun görünən üzüdür. Daha doğrusu, amerikalı kəşfiyyatçılar tərəfindən gözə üfürülən küldür.

Birincisi, Ermənistanda yayılma riski olan viruslarla bu ölkənin Səhiyyə Nazirliyi əvəzinə niyə Pentaqon məşğul olmalıdır?

İkincisi, bir sıra erməni təşkilatları bu laboratoriyaların əleyhinə müntəzəm olaraq aksiyalar keçirir, onların qapadılmasını tələb edirlər. Məsələn, ictimai təşkilat sədri Babken Pipoyan bildirir ki, bu tip laboratoriyaların fəaliyyəti müxtəlif problem və təhdidlərə yol açır. Çünki onların qurulması zamanı virus kolleksiyalarında saxlanılan bütün ştammların ABŞ tərəfinə təhvil verilməsi lazımdır. Nəzarət isə sırf Birləşmiş Ştatların hərbçiləri tərəfindən həyata keçirilir. Bu qurum vasitəsilə rəsmi Vaşinqton ölkə ərazisində yaxın qonşuların ərazisində bioloji vəziyyəti nəzarətində saxlayır.

ABŞ-NİN HƏDƏFİ RUSİYADIR



Rusiya Ermənistanın faktiki olaraq strateji müttəfiqidir. Təbii ki, ABŞ laboratoriyalarının Ermənistan ərazisində, özü də 102-ci bazanın yanında qurulması Kremlin xoşuna gəlməyəcək. Rəsmi Vaşinqtonun maliyyələşdirdiyi qlobal laboratoriya şəbəkəsinin Rusiya sərhədləri yaxınlığında olması bir sıra strateji tapşırıqların öhdəsindən gəlməyə şərait yaradır. Məsələn, müxtəlif patogenlər barədə məlumat toplamaq, onlarla mübarizə üsullarını araşdırmaq, bu məlumatlardan bioloji silah istehsalında istifadə etmək kimi faktorlar var.

Bir faktı da nəzərə almaq lazımdır ki, Nikol Paşinyanın Rusiyaya rəsmi səfərlərinin birində ortaq bəyanat imzalanıb və maddələrdən biri biotəhlükəsizlik sahəsinə aiddir. Bu maddəyə görə, İrəvan və Moskva Ermənistan və ya Rusiyanın maraqlarına zidd olan bioloji təhlükəsizlik sahəsində fəaliyyət üçün öz ərazilərini üçüncü ölkələrə verməyəcəklər. Ancaq vəziyyət göz önündədir.

ABŞ ERMƏNİSTANI KOLONİYASINA ÇEVİRİR

Qeyd etmək yerinə düşər ki, hansısa ölkənin ərazisində ABŞ tərəfindən bu sayda biolaboratoriyanın qurulması de-fakto onun koloniyaya çevrilməsi deməkdir. Əgər hakim komanda Vaşinqtonun maraqlarını təmin etməsə, ölkədə qəflətən epidemioloji vəziyyət pisləşə bilər. Laboratoriyalar ölkələri müstəmləkə kimi saxlamağa kömək etməklə yanaşı, həm də hərbi məqsəd daşıyır. Bu laboratoriyaların yerləşdiyi yerlər xüsusi olaraq müəyyən geosiyasi məqsədlər üçün seçilib. Ermənistanda isə bu müəssisələr İranla müharibə ehtimalına qarşı qurulmaqla yanaşı, Rusiyanın iqtisadiyyatına və təhlükəsizliyinə təsir məqsədi də daşıyır.

Göründüyü kimi, Paşinyan hökuməti ölkəsini amerikalılar üçün təcrübə meydançasına çevirib. Pentaqonun ayırdığı bir neçə milyon dollar müqabilində regionun hansı dərəcədə fəlakətə sürüklədiyi göz önündədir. Ermənistan əhalisi isə təcrübə dovşanı rolunu oynayır.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR

Tel: (+994 55) 254 16 06 E-mail: kaspiqazeti@kaspi.az

BEYNƏLXALQ REYTİNQ AGENTLİYİNDƏN ÜMİDVERİCİ PROQNOZ

BİRRƏQƏMLİ İNFLYASİYA REALDIRMI?

Ölkəmizdə bu il təkrəqəmli inflyasiya proqnozlaşdırılır. Bu həddə 4.5 faiz civarındadır. İstər beynəlxalq reytinq agentliklərinin, istərsə də müvafiq yerli qurumların bu sahədəki gözləntiləri üst-üstə düşür.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

"Fitch Ratings" beynəlxalq reytinq agentliyi bu il Azərbaycanda inflyasiyanın azalacağını proqnozlaşdırıb. Bildirilib ki, 2024-cü ildə inflyasiya 4,5 faizə qədər azalacaq. Uzun müddətdir ikirəqəmli inflyasiya fonunda bu il birrəqəmli proqnozlar özünü doğruldacaqmı?

ƏHALİNİN VƏ BÜDCƏNİN PULUNU "YEYƏN" TƏHLÜKƏ

İqtisadçı ekspert Elman Sadıqov "Kaspi" qəzetinə açıqlamasında dedi ki, yüksək inflyasiya iqtisadiyyat üçün zərərlidir: "İnflyasiya əhalinin pulunu yeyir, büdcənin gəlirlərinin və xərclərinin artmasını zəruri edir. Hər ölkənin iqtisadiyyatı üçün optimal inflyasiya hədləri var. 4-6 faiz ətrafında inflyasiyanın olması Azərbaycan iqtisadiyyatı üçün normaldır. Amma inflyasiyanın 10 faiz və yuxarı olması, iqtisadiyyat, büdcə, əhalinin gəlirləri, rifahı üçün ciddi təhlükədir".

Elman Sadıqov


Foto: Sabir Məmmədov Global Media Group

E.Sadıqovun sözlərinə görə, inflyasiyanın səngiməsi bir çox amillərdən asılıdır: "4,5 faizlik proqnoz Mərkəzi Bankın verdiyi proqnozu təsdiq edir. İnflyasiyanın səngiməsi o şərtlər daxilində gerçəkləşə biləcək ki, hökumət Tarif Şurası tərəfindən tənzimlənən zəruri xərcləri artırmayacaq, çünki onlar təsiredici amillərdir. Digər səbəblərdən biri idxal inflyasiyasıdır. Hazırda bütün dünyada qiymətlər aşağı düşüb. Hətta bir çox əmtəə qiymətləri Rusiya-Ukrayna müharibəsindən öncəki həddə qayıdıb. Yəni inflyasiya ilə bağlı bütün dünyada cilovlanma gedir. Amma Azərbaycan üçün idxal inflyasiyası yenə də aktual olaraq qalır. Bunun aradan qaldırılmasında tariflər, gömrük rüsumları rol oynayır. Əgər mövcud şərait davam edərsə, hər hansı böhran, pandemiya, ciddi müharibələr və yaxud gərginliklər baş verməzsə, dünya bazarında əmtəələrin qiymətləri artmazsa və ölkə daxilində də Tarif Şurası tərəfindən tənzimlənən məhsullarda qiymət artımları olmazsa, bu proqnoz realdır".

ARTAN MAAŞLAR İNFLYASİYA RİSKİ YARATMIR

Müsahibimizin fikrincə, ölkədəki pul dövriyyəsi fonunda artan maaşlar ciddi inflyasiya riski yaratmır. Çünki ölkədə doymuş pul kütləsi yoxdur: "Proqnozların doğrulması, inflyasiya rəqəmlərinin enməsi üçün rəqabət mühiti daha da təkmilləşməlidir. Artıq Rəqabət Məcəlləsi də qəbul edildi. Bu da müəyyən ümid verir. Digər tərəfdən, istehsalın, emalın artması çox önəmlidir. Rəqabət nə qədər çox olarsa, daha aşağı qiymətdə daha keyfiyyətli məhsul almış olarıq".

E.Sadıqov bildirdi ki, hər il yanvar, fevral aylarında idxal artır. Buna müvafiq dollara tələb də yüksək olur: "Dollara tələbin artması ciddi psixoloji vəziyyət yaradır. Əhali arasında maariflənmənin düzgün qurulmasına ehtiyac var. İnsanlar inflyasiya gözləyirlərsə, qiymətlər daha sürətlə artmağa başlayır. Çünki insanlar daha çox istehlaka baş vurur. Əslində devalvasiya getmir. Çünki hazırda neftin qiymətləri, tədiyyə balansındakı vəziyyət və s. devalvasiya üçün müəyyən zəmin yaratmır. Amma "üzən məzənnə" üçün müəyyən iqtisadi şərait və şərtlərin yerinə yetirilməsi vacibdir. Düşünürəm ki, hələlik bu da tezdir".





DEVALVASİYA RİSKİ VARMI?

İqtisadi və Sosial İnkişaf Mərkəzinin üzvü, iqtisadçı Elçin Rəşidovun sözlərinə görə, son vaxtlar insanlar manatlarını daha çox dollara çevirirlər: "İnsanların daha çox dollar alıb yığması iqtisadiyyatda dollar çatışmazlığı, manat artıqlığı əmələ gətirir və bu, manatı dəyərdən salır. Hesab edirəm ki, Mərkəzi Bankın uçot dərəcəsini aşağı salması bununla əlaqədardır. Mərkəzi Bank əvvəllər manatı müstəqil valyuta kimi götürüb, faiz dərəcəsini artırıb-azaltmaqla inflyasiyaya təsir etməyi düşünürdü. İndi də faiz dərəcəsini artırmaqla inflyasiyanı azaltmağa çalışmalıdır. Çünki manat artıqlığı həm də devalvasiya riski yaradır. Devalvasiya riskini yaradan başqa amil büdcə öhdəlikləri və neft gəlirlərinin aşağı düşməsidir. Artan yeni büdcə öhdəliklərini qarşılamaq üçün devalvasiya mümkündür. Devalvasiya da gözlənilərdən yüksək inflyasiya ilə müşayiət olunacaq. Bu riskə görə, insanlar manatdan imtina edib, dollara keçirlər".

TƏDBİRLƏR ƏKS-TƏSİR GÖSTƏRİR

E.Rəşidov qeyd etdi ki, banklara tətbiq olunan sərt siyasət bu il də davam edərsə, inflyasiyada azalma olmayacaq: "Devalvasiya olarsa, dörd faiz ətrafında hədəflənən inflyasiyaya nail ola bilməyəcəyik. Devalvasiya baş verməzsə də, Mərkəzi Bankın inflyasiya hədəflərinə çatması çətin görünür. İnflyasiyanı yaradan mövcud siyasətdir".



Elçin Rəşidov

MİLLİ VALYUTAMIZ HƏLƏLİK MÜSTƏQİL DEYİL

Onun fikrincə, manatın inflyasiyasını təyin edən əsas amil, dolların dünya bazarındakı qiymətidir: "İnflyasiya yüksək olduqca, manat xarici valyutalara nisbətən daha çox dəyərdən düşür. Manatın dollara olan qiyməti son 7-8 ildə sabitdir. Amma bu fonda manat dollara nisbətən bir neçə faiz dəyər itirir. Belə ki, Azərbaycanda olan inflyasiya ABŞ-də olan inflyasiyadan hər il bir neçə faiz yüksəkdir. Bu o deməkdir ki, xarici sektor Azərbaycana nisbətən daha rəqabət qabiliyyətlidir. Milli valyutamız müstəqil deyil, onun qiymətini dollar müəyyən edir. Belə bir fonda inflyasiyanı hədəfləmək düzgün deyil. Bunun üçün iqtisadiyyatı böyüdən və daha çox məşğulluq yaradan siyasət lazımdır. Məşğulluğun özü də iqtisadi artıma töhfəsini verir".

İRAN NÖVBƏTİ SİYASİ TƏLATÜM ƏRƏFƏSİNDƏ



İranda seçki öncəsi vəziyyət dünyanın diqqətindədir. Mühafizəkar qanad siyasi sahədə total təmizləmə aparıb. Filtrdən keçməyənlər arasında Qərblə məhdud əməkdaşlıq konsepsiyasının tərəfdarı hesab olunan İranın keçmiş prezidenti Həsən Ruhani də var.



AZƏR NURİYEV

İranda martın 1-də parlament seçkiləri ilə eyni gündə əsas funksiyası ölkənin ali liderini seçmək olan hökumət orqanına - Dini Ekspertlər Şurasına kritik seçkilər keçiriləcək. Parlament seçkiləri ilə yanaşı, əsas diqqət səkkiz ildən bir keçirilən Ekspertlər Şurasına seçkilərə yönəlib. Məclise-Şuraye-Xübreqan adlanan bu qurum ölkənin ali rəhbərini seçir. İndi bu vəzifədə ayətullah Seyid Əli Xameneidir, ondan əvvəl isə ayətullah Xomeyni İranın ali rəhbəri olub. Seçkiöncəsi vəziyyətə gəldikdə, İran rəhbərliyi rəy sorğularının təfərrüatlı nəticələrinin dərcinə qadağa qoyub. Çünki fəallıq səviyyəsinin son dərəcə aşağı olacağı gözlənilir.

SİYASİ SAHƏDƏ TOTAL TƏMİZLƏMƏ

Digər məsələ də ondan ibarətdir ki, mühafizəkar qanad siyasi sahədə total təmizləmə aparıb. Rəsmi məlumatlara görə, İranın bütün əyalətlərindən ümumilikdə 500 iddiaçı namizəd olmaq üçün ərizə təqdim edib. Bununla belə, tənzimləyici orqan olan Konstitusiyanın Mühafizəçiləri Şurası yalnız 144 namizədin seçkiyə qatılmasına icazə verib. Filtrdən keçməyənlər arasında Qərblə məhdud əməkdaşlıq konsepsiyasının tərəfdarı hesab olunan İranın keçmiş prezidenti Həsən Ruhani də var. Onun seçkiyə buraxılmaması İran dövlətinin kəskin anti-Qərb xəttini davam etdirəcəyini göstərir. Ruhaninin ofisi qərarı şərh etmədən qısa bəyanat yayıb. 2013-2021-ci illər arasında prezident olan Ruhani 2000-ci ildən davamlı olaraq Ekspertlər Şurasının üzvü olub. Eks-prezident uzun müddətdir ki, onu İranın milli maraqlarına məhəl qoymayaraq Qərblə münasibətləri yaxşılaşdırmaq cəhdlərində ittiham edən sərt xətt tərəfdarlarının tənqid hədəfinə çevrilib.



Mustafa Taczadə



EKS-PREZİDENT ŞANTAJ EDİLİR

Ruhani ilə bağlı qərar sərt xətt tərəfdarı, mühafizəkar millət vəkili Nasrulla Pejmanfərin onun ABŞ-yə münasibətini yenidən tənqid etməsindən bir gün sonra verilib. O, ətraflı məlumat vermədən keçmiş prezidentin "qaranlıq sənədləri"ni ifşa edəcəyi ilə də hədələyib. 2020-ci ildən bəri ardıcıl üçüncü ümummilli seçkilərdə seçici fəallığının aşağı olmasından narahat olan Ruhani hakimiyyəti müxtəlif namizədlərin seçkilərdə iştirakına icazə verməklə, fəallığın artmasına yardım etməyə çağırmışdı.

Ruhani aylardır seçicilərə laqeydlik barədə xəbərdarlıq edir. O, bunu ictimaiyyət arasında məyusluq və aşağı fəallığı təmin etmək üçün hakimiyyətdəki sərt xətt tərəfdarlarının düşünülmüş strategiyası ilə əlaqələndirir.

MÜHAFİZƏKAR DÜŞƏRGƏ ÜÇÜN TEST

Beləliklə, əvvəlki seçkilərdə mandatların əksəriyyətini almış mühafizəkar düşərgə üçün bu seçkilər 2022-2023-cü illərin izdihamlı etiraz hərəkatından sonra ilk dəfə güc sınağı olacaq. İranda seçicilərin səsvermə hüququ 18 yaşdan başlayır. Namizədin yaşı isə 30-75 arasında olmalıdır. 54 milyon 915 min seçicinin səsverməsi üçün 53 min seçki məntəqəsi fəaliyyət göstərəcək.

Qeyd etdiyimiz kimi, hakimiyyət orqanlarının ən böyük narahatlığı seçkilərdə iştirakla bağlıdır. "Amwaj media"nın yazdığına görə, Tehran rejimi seçicilərin laqeydliyinə işıq sala biləcək rəy sorğularının nəticələrinin dərcinə mane olmağa çalışır.

İranlı Tələbələr üçün Sosioloji Mərkəz (ISPA) tərəfindən aparılan sorğunun nəticəsinə görə, respondentlərin 28%-dən azının seçkilərə getməyə hazır olduqlarına əmin olduqları müəyyən edilib. Seçkilərdə alternativ düşərgədən əhəmiyyətli namizəd olmayacaq.

Düzdür, ISPA analitikləri dekabrda hesabatdan yalnız çıxarışlar təqdim ediblər. Bu, çox güman ki, mühafizəkar dairələri qorxudub, çünki bu ilin yanvarında "Fars" agentliyi adı açıqlanmayan araşdırmalara istinadən xəbər vermişdi ki, martın 1-də seçici fəallığı ən azı 40% olacaq.

Gənc qadın Məhsa Əmininin öldürülməsindən sonra ölkədə 2022-2023-cü illərdə etiraz hərəkatı başlamışdı. Narazılıq hələ də qalır. Polis tərəfindən döyüldüyü iddia edilən 22 yaşlı qızın öldürülməsi hökumət əleyhinə hərəkata səbəb olub.



MOLLA REJİMİNDƏ QORXU YARADAN MƏKTUB

İranda hazırda Tehran həbsxanasında olan tanınmış islahatyönlü siyasətçi Mustafa Taczadənin çıxışı da şok yaradıb. Ölkənin ali rəhbəri ayətullah Əli Xameneini kəskin tənqid edərək deyib ki, ölkənin "qüsurlu siyasi strukturuna" görə məsuliyyəti o daşıyır. Evin həbsxanasında beşillik cəza çəkən Taczadə 2022-ci ildə "milli təhlükəsizliyə təhdid yaratmaqda" və "hökumətə qarşı təbliğatda" ittiham olunaraq məhkum edilib. Taczadə həbsxanadan yazdığı məktubda bildirir ki, o, İslam Respublikası liderlərinin "strateji uğursuzluqlarına" görə Üləmalar Şurasının seçkisində səs verməyəcək. Siyasətçi habelə Xameneinin ölkədə yaratdığı şəraitdə seçki keçirilməsini mənasız adlandırıb. 1997-2005-ci illərdə islahatyönlü prezident Məhəmməd Xatəminin prezidentliyi dövründə daxili işlər nazirinin müavini olan Taczadə vurğulayıb ki, Xamenei İranda baş verən dəhşətli faktlara göz yumub və etiraz edən milyonlarla vətəndaşın istəklərini dinləməyib: "Amma burası da var ki, əksər iranlılar da liderin dediklərinə, radio və televiziya ilə müraciətlərinə məhəl qoymamaq qərarına gəliblər. Səs verməyin!" Bu məktub dərc olunmazdan az əvvəl Əli Xamenei vətəndaşlara müraciət edərək onları 1 mart seçkisində fəal iştirak etməyə çağırmışdı.

Beləliklə, bu qənaətə gəlmək olar ki, İran hakimiyyətinin daxilində bu seçkilərdə də dəyişiklik baş verməyəcək.



Həsən Ruhani

EDİNBURQ UNİVERSİTETİNİN MAGİSTRANTI RƏVANƏ ŞIXƏLİ: “KƏŞF EDİLMİRSƏ, BU, UŞAĞIN DEYİL, VALİDEYNİNİN VƏ MÜƏLLİMİNİN GÜNAHIDIR”.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Böyük Britaniyada müəllim işləyən AZƏRBAYCANLI XANIM

Rəvanə Şıxəli: “Tutaq ki, şagirdin biri hiperaktivdir və dərsə qulaq asmır, dinləmir. Müəllim anlamalıdır ki, bu uşaq “tərbiyəsiz” deyil, sadəcə, özündən asılı deyil və bunun diaqnozu var. Həqiqi müəllim o şəxsdir ki, bu fərqlilikləri başa düşür və onlara pozitiv yanaşır”.

Onun sirri hamıya mümkünsüz görünən xəyallarına inanıb, ardınca getməsidir. Çünki onun üçün uzaq, mümkün olmayan heç nə yoxdur. İstəyirsə, deməli, bacaracaq. Elə bu əzmi onu Şirvandan Birləşmiş Krallığa qədər aparıb. Müsahibimiz xüsusi təhsil ehtiyacı olan uşaqları dəstəkləməyi hədəfləyən pedaqoq, Böyük Britaniyada Edinburq Universitetinin magistrantı, “George Heriot’s School”da müəllim işləyən azərbaycanlı Rəvanə Şıxəlidir.

Şirvanda üçuşaqlı ailənin ortancıl övladı olaraq dünyaya gəlib. Atası ingilis dili müəllimi olduğu üçün övladlarına bu dili kiçik yaşlardan öyrətməyə başlayıb. Rəvanə uşaqlıqdan fəallığı ilə seçilib, müəllimlərinin sevimlisi olub. Özünü şanslı şagird adlandırır və karyerasını ilk müəllimi olan atasına və digər müəllimlərinə borclu olduğunu deyir. Məktəbi bitirdikdən sonra yüksək balla Azərbaycan Dillər Universitetinin Təhsil fakültəsinə, ingilis dili müəllimliyi ixtisasına qəbul olub. İkinci kursdan isə təhsilini SABAH qruplarında davam etdirib. Azərbaycanda özəl məktəblərdən birində müəllim işləyib, təcrübə qazandıqdan sonra Dövlət Proqramı ilə Böyük Britaniyanın Edinburq Universitetində İnklüziv təhsil üzrə təhsilini davam etdirir. Rəvanə həm də Böyük Britaniyada ölkə üzrə ən böyük məktəblərdən biri olan “George Heriot’s School”da müəllim işləyir. Deyir ki, burada öz sahəsində müəllim işləyən yeganə xarici vətəndaşdır.

“BÜTÜN SƏHVLƏRİ POZİTİV QARŞILAYAN MÜƏLLİM ÖYRƏTMƏYİ BACARIR”

● Rəvanə xanım, valideynləriniz sizi mübariz və maksimalist adlandırır. Sizcə, maksimalist olmağınız ortancıl uşaq sindromundan irəli gəlib?

● Bəli, ortancıl uşaq olmağımın üstün cəhəti maksimalist olmaq, ən yaxşısını etməyə çalışmaqdır. Adətən, ortancıl uşaqlar düşünürlər ki, onlar ailələri tərəfindən çox sevilmirlər. Buna görə də daha çox mübariz olur və özlərini ailələrinə daim sübut etməyə çalışırlar. Bu, məndə də var idi. Valideynlərim məni nə qədər çox istəsə də, hər dəfə çalışırdım ki, fərqlilik edim, seçilim. Dərslərdə “5” alır, hekayələr yazıb valideynlərimə oxuyur, şeir müsabiqələrinə qatılır, tədbirlərdə aparıcılıq edirdim. Ən yaxşı olmağa çalışırdım. Dünyada da ortancıl uşaq sindromuna görə, valideynlərinin ona kifayət qədər diqqət yetirmədiyini düşünən uşaq, özünü onlara göstərmək üçün həddindən artıq hərəkətlər edə bilir. Bu sindrom məndə də pozitiv mənada maksimalist olaraq özünü göstərdi.

● Özünüzü yaxşı müəllimlərin əhatəsində olduğunuz üçün şanslı hesab edirsiniz. Yaxşı müəllimlərlə əhatələnən şagirdin üstünlükləri nədir?

● İki şagird təsəvvür edin. İkisinin də ingilis dili öyrənməyə ehtiyacı var. Biri kursa gedir və tərifli müəllimlə hazırlaşır. Bu müəllim standart dərs keçir, sərt olur, şagirdin uğurlarını deyil, əksinə, səhvlərini qabardır. Həmin şagird bu fənnə nifrət edir. Çünki səhərdən axşama qədər çalışmağına, bütün qrammatik qaydaları bilməyinə baxmayaraq, ingiliscə danışa bilmədiyinə görə, özünü bacarıqsız hiss edir və dili sevmir. Çünki müəllim onun aktiv dinləmə, danışma bacarıqlarını inkişaf etdirmir və ən əsası, neqativdir. Şanslı şagird isə tam fərqli inkişaf edir. Sadə müəllim yanında gedir, amma müəllim motivatordur. Uşağın dil səviyyəsinin sıfır olmasına baxmayaraq, bu dili sevdirir və sevərək mənimsətdirir. Həmin şagirdə bundan sonra bütün qapılar açılır. Hər bir uşaq səhv edə, çətin qavraya bilər. Amma bütün səhvləri pozitiv qarşılayan müəllim öyrətməyi bacarır. Mənim bəxtimə həmişə belə müəllimlər çıxıb. Ona görə də, bu gün xəyallarımın ardınca qaçıram. Azərbaycana gələndə müəllimlərimlə görüşür, onlara təşəkkür edirəm. Çünki inandığım şeylərin arxasınca getməyin bünövrəsi məktəbdə qurulub. Hər bir uşağın ən az bir yaxşı müəllimi mütləq olmalıdır.



ŞAGİRDLƏRİN FƏNLƏRİ SEVMƏMƏSİNİN SƏBƏBİ...

● “Namizədin öz fənni ilə bağlı bilik və bacarıqlara sahib olması onu müəllim etmir”, - deyirsiniz. Bəs namizədi müəllim edən nədir?

● Çox insan bilikli ola bilər, amma hər kəs müəllim ola bilməz. Müəllim bildiklərini öyrətməyi bacaran şəxsdir. Son dövrün alimləri artıq bununla da razılaşmır. Onlar deyir ki, müəllim o şəxsdir ki, onun kifayət qədər bilik və bacarıqları var, öz bilik və bacarıqlarını qarşısındakına öyrədir, eyni zamanda, qarşısındakı şagirdin öyrənmə metodlarını bilir. Hər bir şagirdin öyrənməyə qarşı münasibəti müxtəlifdir. Məsələn, biri baxaraq, digəri eşidərək öyrənir. Yaxud şagird var ki, auitistdir, onun öyrənməyə yanaşması tam fərqlidir. Tutaq ki, şagirdin biri hiperaktivdir və dərsə qulaq asmır, dinləmir. Müəllim anlamalıdır ki, bu uşaq “tərbiyəsiz” deyil, sadəcə, özündən asılı deyil və bunun diaqnozu var. Həqiqi müəllim o şəxsdir ki, bu fərqlilikləri başa düşür və onlara pozitiv yanaşır. Dərsini də onların ehtiyaclarına uyğun tədris edir.



> *Peşəkar müəllim fəaliyyəti zamanı öyrətməyə birtərəfli yanaşmamalıdır. Çünki bu, şagird üçün də çox sıxıcı olur. Öyrənmə prosesi şagirdi cəlb etməli, onda maraq oyatmalıdır.*

● Bu gün dünyada oyun əsaslı öyrənmə prosesi müzakirə edilir. Bəzi insanlar isə müəllimin sərt olmasının tərəfdarıdır. Siz necə düşünürsünüz?

● Peşəkar müəllim fəaliyyəti zamanı öyrətməyə birtərəfli yanaşmamalıdır. Çünki bu, şagird üçün də çox sıxıcı olur. Öyrənmə prosesi şagirdi cəlb etməli, onda maraq oyatmalıdır. Şagirdlərin bəzi fənləri sevməməsinin səbəbi öyrənmə prosesinin maraqsız olmasıdır. Bütün uşaqlar oyunu sevir, onları inkişaf etdirən maraqdır. Maraq yarandıqda nəyisə sorğulayırlar. Oyun əsaslı öyrənmə ən məşhur öyrətmə sistemlərindən biridir. Bunun da mühüm nüansları var. Müəllimin məqsədi uşaqlarla oynayıb, onları güldürmək olmamalıdır. Müəllim dərsdən əvvəl dərs planını hazırlayarkən hədəflər qoymalıdır ki, biz bu oyunu oynayarkən nəyi öyrənəcəyik və dərs planımız tamamlanacaqmı? Müəllim oyun oynayaraq məqsədinə çatırsa, deməli, bu, uğurlu dərsdir.

“HƏR BİR UŞAĞIN ÖYRƏNMƏ METODU FƏRQLİDİR”

● Tez-tez ətrafdakılardan “uşağın başı var, oxumur”, yaxud “başı yoxdur, öyrənə bilmir” sözlərini eşidirik. Bu ifadələr nə dərəcədə düzgündür?

● Bu, tamamilə yanlış yanaşmadır. Dünyaya gələrkən hamımız eyni potensiala sahib oluruq. Amma bu potensialın valideyn tərəfindən necə inkişaf etdirilib yönəldilməsi, valideyndən sonra müəllimin öyrətmə prosesini necə aparması əhəmiyyətlidir. Məsələn, uşağın hansısa fənnə yanaşması fərqlidirsə, bu fərqlilik müəllim tərəfindən susdurulub, yoxsa alqışlanıb? Hər bir uşağın öyrənmə metodu fərqlidir. Müəllim bu fərqliliyə necə yanaşıb? Hər bir uşağın “başı” var. Sadəcə, bu “baş”lar müəllim tərəfindən kəşf edilməyi gözləyir. Kəşf edilmirsə, bu, uşağın deyil, valideynin və müəlliminin günahıdır.

● Rəvanə xanım, Edinburq Universitetində inklüziv təhsil üzrə magistraturada oxuyursunuz. Bu ixtisası nə üçün seçdiniz?

● Sinifdə normal uşaqlarla yanaşı, xüsusi uşaqlar da olur və olmalıdır. Çox təəssüf ki, indiki dövrdə xüsusi uşaqların öyrənmə çətinlikləri və yaxud məhdudiyyətləri var. İnklüziv təhsil də xüsusi uşaqların digər uşaqlarla birlikdə təhsilə cəlb edilməsidir. Azərbaycanda özəl məktəbdə işləyərkən də xüsusi şagirdlərim var idi. Bərabər hüquqlu olmaq, hamı ilə birlikdə təhsil almaq hər bir uşağın haqqıdır. Ölkəmizdə müəllimlərin əksəriyyəti təhsil dünyasında xüsusi uşaqları anlamırlar və onlar bu səbəbdən inkişaf edə bilmirlər. Müəllimləri inklüziv təhsillə bağlı maarifləndirmək ən böyük karyera məqsədimdir. İstər xüsusi uşaqlar, istərsə də digərləri, hər bir uşağın təhsilində ən yaxşı başlanğıcın olmasını təmin etmək üçün təhsil alır, xarici təcrübəni öyrənirəm. Hazırda Edinburq Universitetində tələbələr üçün bərabər və əlçatan öyrənmə mühitinin yaradılması nəzəriyyələri və təcrübələrini araşdırıram.

AZƏRBAYCANLI QIZ İNGİLİS UŞAQLARA NECƏ DƏRS KEÇİR?

● Bəs Böyük Britaniyadakı iş həyatınız necə başladı?

● Şotlandiyaya gələndə əsas məqsədlərimdən biri burada məktəbdə işləmək idi. Çünki onların məktəb təcrübəsi olduqca fərqlidir. Bu təcrübəni öyrənib, ölkəmdə tətbiq etmək istəyirdim. Ölkə üzrə ən nüfuzlu məktəblərdən olan “George Heriot’s School”a müraciət etdim. “Harri Potter” əsərlərinin müəllifi C.K. Roulinqin uşaqları da bu məktəbdə oxuyub. Müsahibələrdən sonra məni işə götürdülər. Hazırda həftədə 17 saat işləyirəm. Tələbə vizası olduğu üçün 20 saatdan artıq işləyə bilmirik. Burada britaniyalı, şotland, irlandiyalı şagirdlərlə müzakirələr aparır, danışırıq. Direktorlarım da məndən razıdır.

● Böyük Britaniyada xarici tələbənin öz ixtisası üzrə iş tapması o qədər də asan deyil.

● Bəli. Yeganə xarici tələbəyəm ki, öz sahəm üzrə işləyirəm. Onlar daha çox öz millətlərinə üstünlük verirlər. Başqa ölkə vətəndaşlarına ikinci dərəcəli kimi baxırlar. İş yoldaşlarımın hər biri 35 yaşdan yuxarı britaniyalı, şotland, irlandiyalıdır. Uşaqlarla emosional bağın qurulmasında uğurlu olduğumu düşündüklərinə görə, işə qəbul aldım. Əslində, bu məktəbdə işə başlamaqda məqsədim pul qazanmaq deyil, təcrübə toplamaq idi. Hazırda müqaviləli şəkildə işləyir, aylıq maaş alıram. Məktəb tələbatımı qarşılayır, vergilər daha az hesablanır və bu, gələcəkdə təqaüdümə yazılır.



“MƏN BURADA RƏVANƏ DEYİL, AZƏRBAYCANAM”

● Tam fərqli mühitdə oxuyur, çalışırsınız. İngilislərin azərbaycanlı xanımla münasibətləri necədir?

● Xarici ölkədə tələbə icması elədir ki, hər bir insan öz ölkəsini təmsil edir. Məsələn, mən burada Rəvanə deyiləm, Azərbaycanam, yaxud Con hamı üçün ABŞ-dir. Çalışıram ki, burada əcnəbi tələbələrlə əlaqələr qurum və ölkəmi təmsil edim. Dərs zamanı kifayət qədər aktiv oluram ki, azərbaycanlı olmağım diqqəti çəksin və ölkəmi yaxşı tanısınlar. Kurslarımız olur, orada aktiv şəkildə müzakirələrdə iştirak edirəm, bu qiymətlərə təsir etmir, amma insanlar səni tanıyır, müəllimin pozitiv münasibəti olur. Mən bu səbəbdən hər zaman kurs müzakirələrində debatlar aparıram. Həqiqətən, sonra mənə yaxınlaşıb Azərbaycan haqqında maraqlanırlar. Hətta ingilis tələffüzümə görə başqa ölkədən olduğuma inanmayanlar da olur. Hər kəslə münasibətlərim yaxşıdır, hətta ölkəmizə səfər etmək istəyənlər də var. Bizim hər birimizin xaricdəki simamız Azərbaycandır. Bunu hiss edərək hərəkət etməliyik.

● Qadının ən böyük şansı ona inanan, dəstək olan ailədə böyüməsidir, deyirlər. Siz də buna görə özünüzü şanslı hesab edirsiniz. Valideynlərinizlə hansı anı xatırlayırsınız ki, bu gün də sizə qürbətdə güc verir?

● Səkkizinci sinifdə valideynlərimə dedim ki, hekayə yazmışam, sizə oxumaq istəyirəm. Başdan sona qədər oxudum və onların kövrəldiyini gördüm. Mənə “əhsən”, “halal olsun sənə”, “səninlə fəxr edirik”, “bacaracağına inanırdıq” kimi sözlər dedilər. Bu sözlər mənə elə gözəl təsir etdi ki, özümü dünyanın ən güclü qızı hesab etdim. Daha sonra şeir müsabiqəsinə qatılırdım, anamdan xahiş etdim ki, məni izləməyə gəlsin, çünki yer tutmayacağımdan qorxur, o an tək qalmaq istəmirdim. Anam həmin gün işdə olacağı üçün gəlməyəcəyini dedi. Səhnədə olanda tamaşaçıların içində anamı gördüm. O anın möhtəşəmliyini, mənə verdiyi hissi izah edə bilmərəm. Bu yaşıma qədər bu iki anı unutmuramsa, əminəm ki, inkişafımda rolu böyük olub.



SOSİAL ŞƏBƏKƏLƏR GƏNCLƏRİ TƏNBƏL EDİR

AZ İŞLƏYİM, ÇOX QAZANIM



Azərbaycanda gənclərin 20 faizi nə işləyir, nə də hansısa təhsil alıb. Bu kateqoriyaya daxil olanlar daha çox kriminal aləm, radikal dini qruplaşmalar üçün asan hədəf hesab edilirlər.



KÖNÜL CƏFƏRLİ

Azərbaycanda NEET (Not in Education, Employment, or Training) göstəricisi açıqlanıb. Bu göstərici 15-24 yaş arasında olan, heç bir yerdə təhsil almayan və işləməyən insanların sayını ifadə edir. Rəsmi rəqəmlərə görə, Azərbaycanda bu göstərici 20%-ə bərabərdir. Yəni ölkədəki 15-24 yaş arası insanların hər beş nəfərindən biri nə oxuyur, nə də işləyir. Onların toplam sayı 270.640 nəfərdir. Uşaqlar niyə təhsildən yayınır, iş həyatından, məsuliyyətdən nə üçün qaçır? Qısa yolla pul qazanmaq arzusu onların psixoloji durumuna necə təsir edir? Bu psixologiyadan necə qurtulmaq olar və özünüinkişafa yönəlmək üçün hansı tədbirlər görülməlidir?

"TİKTOK"ER, BLOQER OLMAQ EŞQİ GƏNCLƏRİ MƏHV EDİR"

Psixoloq Təranə Kazımlı deyir ki, ölkə qanunlarına görə 18 yaşa qədər hər kəs yeniyetmə sayılır: "Təhsildən yayınan, işsiz gənclərə sosial şəbəkələrin təsiri daha çoxdur. "TikTok" və digər bu kimi platformalara meyillənib, asan yolla pul qazanmaq həvəsinə düşən gənclərin sayı artıb. Bu gün 50 yaşında olan şəxs 15-24 yaşında olarkən bu tip platformalar yox idi. Ona görə də ailələrdə uşaqlar təhsilə yönləndirilirdi. Postsovet məkanında çox az ailə tapılar ki, orada ali təhsilli şəxs olmasın. Hər kəs təhsil alıb, iş-güc sahibi olurdu. Düşünürəm ki, o dövr ilə bugünkü dövrü müqayisə etsək, vəziyyət dəyişib. Artıq insanlar təhsil alıb müvafiq sahələrdə və ya qeyri-ixtisas sahələrində çalışmaq istəmirlər. Gənclərdən tez-tez eşitdiyim bir fikir var: "TikTok"er, bloqer olacağam". Bu gün hər kəsin evində televizor var. Uşaqlar televizorda belə "TikTok"a daxil ola bilirlər. Uşaq rol olaraq nəyi görürsə, onu da özünə örnək alır".

"İNSANLAR ANCAQ PULA KÖKLƏNİB"

Psixoloqun sözlərinə görə, platformalar üzərindən "fenomen" olanlar heç düşünmürlər ki, onların ödəniş qarşılığında etdiyi bir sıra reklamlar gələcək nəslin xəstə yetişməsinə səbəb ola bilər:

"Onlar düşünürlər ki, reklamımı edim, pulumu qazanım. Saatlarla canlı yayım açıb monitor qarşısında otururlar. Başları qarışır, günün çox hissəsini hərəkətsiz formada telefon qarşısında keçirdiklərinin fərqinə varmırlar. Hamı qısa yoldan varlanmaq, "az işləyim, çox qazanım" düşüncəsi ilə yaşayır. Heç kim qazandığı pula qane olmur. İnsanlar ancaq pula köklənib".

VALİDEYNLƏR BU TÖVSİYƏLƏRƏ ƏMƏL ETMƏLİDİRLƏR

Psixoloqun valideynlərə tövsiyələri də var: "Uşaqların yanında davranışlarınıza diqqət edin. Valideynlər ən azından işdən fürsət olduqda bir kitab oxusunlar, qəzet vərəqləsinlər. Bizim vaxtımızda böyüklər mütaliə edərdi, uşaqlar da maraqla onlara baxardı, soruşardı. Sabah onlar da hansısa kitabı oxumağa başlayardı. Bu gün isə evə gələn televizor, kompüter, telefon qarşısına qaçır. Gənclərin özünütəsdiq etmək üçün müəyyən sektorlarda uzaqdan idarəedilməsi mümkün olan işlər, layihələr hazırlansın. Bu məsələnin Milli Məclisdə müzakirə edilməsini də istəyərəm".



Təranə Kazımlı

Əhməd Qəşəmoğlu

İNSANLAR PROBLEMİN FƏRQİNDƏ DEYİLLƏR

Sosioloq Əhməd Qəşəmoğlu isə bildirir ki, insanlar altı yaşa qədər xüsusi təlim-tərbiyə ilə böyüdülməlidirlər: "Ömrün uğurlu bünövrəsi" başlıqlı kitab hazırlamışdım. Düşünürdüm ki bu kitab nəşr edildikdə çox böyük diqqət çəkəcək, lakin gözlədiyim kimi olmadı. Çünki insanlar bu ciddi problemin hələ də fərqində deyillər. Baxın, 6 yaşa qədər uşaqlar valideyn himayəsində təlim-tərbiyə görür, bir baza formalaşır. Daha sonra məktəbə gedirlər və orada bu baza daha da təkmilləşdirilir. Lakin bu, hər ailədə belə olmur. Məktəbdə əvvəllər 11 il uşaqlar həm danlanırdı, həm döyülürdü. Son dövrlərdə döyülmək məsələləri yığışdırılır. Lakin düşünün, 11 il üzü danlanan şagirddə nə xanımlıq, nə kişilik qalır? Bu, onların psixologiyasına necə mənfi təsir edir, bir nəfər bunu düşünürmü?"

XÜSUSİ FƏALİYYƏT PROQRAMI HAZIRLANMALIDIR

Ekspert bildirir ki, doqquzuncu sinifdə şagirdlərin bir qismi, 11-ci sinifdə isə digər qismi məktəblərdən ayrılır. Bu uşaqlar təhsilə yönləndirilmədiyi üçün bəziləri dini qruplaşmalara, kriminal aləmə meyillənirlər: "Azərbaycanda hər rayonda "Gənclər evi" tikilib, niyə bu uşaqlarla maraqlanmırlar? "Gənclər evi"nin potensialından nə üçün maksimum istifadə edilmir? Gənclər üçün xüsusi fəaliyyət proqramı hazırlanmalıdır ki, onların gələcəyi xilas edilsin. Azərbaycan gəncinin 24 yaşa qədər yox, 30 yaşa qədər hissəsi müşahidə edilməlidir. Aidiyyəti qurumlar birgə layihələr həyata keçirməklə bu problem üçün əsaslı çıxış yolu tapılmalıdır".

Kaspi ÜÇ ƏSRİN QƏZETİ

Təsisçi
Global Media Group

Baş redaktor
İlham Quliyev

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Könül Cəfərli, Kubra Məhərrəmova, İlhamə Əbülfət, Aysel Aslan, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli
Yayım və satış meneceri
Vadim Manafov

Ünvan
Bakı, Səməd Vurğun 34, AF Mall
Telefon: (012) 525 03 31
kaspiqazeti@kaspi.az

Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 445
Tiraj: 2250
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.



"Azerconnect" Azərbaycanın ən yaxşı işəgötürəni seçildi

"Azerconnect" şirkəti növbəti dəfə nüfuzlu "Top Employer Institute" (Ən Yaxşı İşəgötürənlər İnstitutu) tərəfindən Azərbaycanda "Ən Yaxşı İşəgötürən" şirkət seçilib. Şirkət 2024-cü ildə yenidən bu sertifikata layiq görülməklə fəaliyyətində ən yaxşı beynəlxalq insan resursları təcrübələrini tətbiq etdiyini, eləcə də öz əməkdaşları üçün layiqli iş şəraiti təmin etməyə sadiqliyini nümayiş etdirib.

"Azerconnect" şirkəti "Top Employer Institute" tərəfindən iş mühiti, istedadların cəlb edilməsi, öyrənmə, müxtəliflik, bərabərlik və inklüzivlik, rifah və sair daxil olmaqla 20 sahədən ibarət 6 istiqamət üzrə qiymətləndirilib və mükafata layiq görülüb.

"Ardıcıl ikinci ildir ki, bu nüfuzlu mükafata layiq görülməkdən qürur duyuruq. Ən qabaqcıl insan kapitalı təcrübələrini fəaliyyətimizə inteqrasiya etməklə biz şirkətimizdə mükəmməlliyi təşviq etməyə davam edirik", - deyə "Azerconnect" şirkətinin Baş direktoru Emil Məsimov bildirib.

"İşçilərin rifahına, peşəkar inkişafına, inklüzivliyinə önəm verən iş yeri mədəniyyətinin yaradılmasına istiqamətlənən töhfələrimizin nəticəsi olaraq şirkətimizin "Top Employer Institute" tərəfindən yenidən Azərbaycanın ən yaxşı işəgötürəni olaraq seçilməsinin şahidi olduğum üçün çox sevinirəm. "Azerconnect" şirkətinin ruhlandırıcı iş yeri kimi inkişaf etdirilməsi, hər bir əməkdaşın karyera inkişafı və rifahının yüksəldilməsinə həsr olunmuş ən yaxşı layihələrin və fəaliyyətlərin beynəlxalq dəyərlərə uyğun qiymətləndirilməsi qürurverici haldır", - deyə "Azerconnect" şirkətinin İnsan Resursları üzrə Baş Müdiri Mətanət Babayeva bildirib.

"Müstəsna zamanlar insanlarda və təşkilatlarda ən yaxşıları ortaya çıxarır. Biz bu il Ən Yaxşı İşəgötürənlərin Sertifikatlaşdırma proqramımızda bunun şahidi olduq. Ən yaxşı işəgötürənlər hər zaman sübut edib ki, onlar işçilər üçün daha yaxşı iş yerinin yaradılmasına, eləcə də əməkdaşların inkişafı və rifahının şirkət üçün prioritet olmasına sadiqdirlər. Bununla onlar kollektiv şəkildə iş dünyasını zənginləşdirirlər. Biz builki aparıcı insan yönümlü işəgötürən şirkətlərin qrupunu elan etməkdən qürur hissi duyuruq", - deyə "Top Employer Institute"nin Baş direktoru David Plink qeyd edib.

"Top Employer Institute" 2024-cü il üzrə 122 ölkədə/regionda 2300 təşkilatı sertifikatlaşdırıb. Bu sertifikatı əldə etmiş Ən Yaxşı İşəgötürənlər qlobal miqyasda 9 milyondan çox işçinin həyatına müsbət təsir göstərirlər.

"Azerconnect" şirkəti "NEQSOL Holding"-in tərkibinə daxildir. "NEQSOL Holding" 11 ölkədə telekommunikasiya, enerji, yüksək texnologiyalar və tikinti sahələrində fəaliyyət göstərir və 12 000-dən çox işçi heyətinə malikdir.



COP29 üçün "gənc iqlim səfirləri" hazırlanır

Meksikadan 35 nəfər gəncin seçilməsi üçün xüsusi proqram həyata keçirilir. BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının 29-cu sessiyası noyabrın 11-22-də Bakıda baş tutacaq.

Meksikanın Xarici İşlər Nazirliyi, UNİCEF tərəfindən Latın Amerikasının İqlim Reallığı layihəsi çərçivəsində Bakıda keçiriləcək COP29 konfransında iştirak etmək üçün Meksikadan 35 nəfər gəncin seçilməsi üçün İqlim Məsələləri Üzrə "Gənc İqlim Səfirləri" proqramı həyata keçirilir. "Trend" xəbər verir ki, bu barədə Meksikanın Xarici İşlər Nazirliyi məlumat yayıb.

MƏQSƏD DAHA ÇOX İCMAYA MÜRACİƏT ETMƏKDİR

Qurum Bakıda keçiriləcək COP29-da iştiraka görə, meksikalı gənclərin 35 nümayəndəsini seçmək üçün "Gənc İqlim Səfirləri" proqramına start verib. Meksika Gənclər İnstitutu (IMJUVE), Milli Yerli İnstitutu (INPI) və Matias Romero İnstitutu (IMR) də bu proqramda iştirak edir.

"Dünyanın hazırda yaşadığı fövqəladə iqlim vəziyyətini nəzərə alaraq, proqram aktual məsələlərdə gənclərin daha müxtəlif və inklüziv təmsilçiliyinə nail olmaq məqsədi ilə daha çox icmaya müraciət etmək məqsədi daşıyır. Bu icmaların iştirakı iqlim ədalətinə maneələrin aradan qaldırılması və unikal şəraitin təmin edilməsi üçün vacibdir", - bəyanatda deyilir.

GƏNCLƏRƏ DƏRİN TƏLİMLƏR KEÇİRİLƏCƏK

Latın Amerikası İqlim Reallığı Layihəsi və məsul qurumlar gənclərə iqlim dəyişikliyinin həlli üçün uyğunlaşma, təsirlərin azaldılması və tətbiqi alətləri, həmçinin iqlim dəyişikliyi ilə bağlı beynəlxalq danışıqlar üzrə dərin təlimlər keçirəcək.

Qeyd edək ki, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının 29-cu sessiyası noyabrın 11-22-də Bakıda keçiriləcək.

"SOCAR Könüllüləri" məlumatlandırılıblar

"SOCAR Polymer" şirkətinin yüksək sıxlıqlı polietilen zavodunun açılışının 5-ci ildönümü münasibətilə tur təşkil olunub.

SOCAR-dan "Report"a bildirilib ki, tur çərçivəsində könüllülərə öncə ölkəmizin neft-kimya sənayesi, "SOCAR Polymer" şirkəti, o cümlədən yüksək sıxlıqlı polietilen zavodunun fəaliyyəti barədə ətraflı məlumat verilib.

Sonra könüllülər zavodun idarəetmə otağı, laboratoriya, qablaşdırma və anbar bölmələri ilə tanış olublar.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə 2019-cu il fevralın 18-də açılışı olan zavod ötən illər ərzində səmərəli fəaliyyət göstərərək ölkəmizin qeyri-neft sektorunun və neft-kimya sənayesinin inkişafına, ixrac potensialının artırılmasına dəyərli töhfələr verir.

SAHİBKARLAR EMAL SƏNAYESİNİN İNKİŞAFINA AZ MARAQ GÖSTƏRİRLƏR

POMİDOR İXRACINI AZALDAN SƏBƏBLƏR

Pomidor ixracımızda keçən illə müqayisədə azalmalar müşahidə edilir. Ekspertlər sahibkarların ixraca meyilli olmadıqlarını bildirirlər. Sahibkarlar isə bunu məhsula görə ödənişin gecikməsi ilə əlaqələndirirlər.




ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Azərbaycanın qeyri-neft sektoru üzrə əsas ixrac məhsullarından biri pomidordur. Ötən ilin yanvar-noyabr aylarında Azərbaycan 140,5 milyon ABŞ dolları dəyərində pomidor ixrac edib. Bu barədə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin "İxrac İcmalı"nın dekabr sayında bildirilir. İcmala əsasən, bu rəqəm 2022-ci ilin 11 ayı ilə müqayisədə 10,3 milyon ABŞ dolları və ya 6,83 faiz azdır. Bu azalmanın səbəbi nədir? İxracı daha da artırmaq, sahibkarları stimullaşdırmaq üçün hansı addımlar atıla bilər?

MƏHSULUN MAYA DƏYƏRİ ARTIB

Milli Məclisin Aqrar siyasət komitəsinin üzvü Azər Badamov pomidor ixracının azalmasının kökündə dayanan amilləri sadaladı: "Birinci səbəb odur ki, istixanalarda pomidorun becərilməsi xərclərinin artması istehsal olunan məhsulun maya dəyərini yüksəldir. Bu da bazara çıxarılan pomidorun rəqabət qabiliyyətini azaldır. Digər bir səbəb Rusiya rublunun dəyər itirməsidir. Pomidor ixracımızın əsas bazarı Rusiyadır. Rublun xarici valyutalar qarşısında dəyərinin azalması fermerlərin ixrac etdikləri kənd təsərrüfatı məhsullarının satışından gələn gəlirlərini kəskin azaldır".

Deputatın fikrincə, ixracı artırmağın əsas yollarından biri emal sənayesini inkişaf etdirməkdir: "İstixana şəraitində yetişdirilən kənd təsərrüfatı məhsullarının emal sənayesinə yönəldilməsi rentabelli olmur. Emal sənayesi əsasən mövsüm dövründə tədarük olunan məhsullarla fəaliyyət göstərməlidir. Amma regionlarda kifayət qədər emal sənayesi müəssisələri yoxdur. Emal sənayesinin inkişafı qeyri-neft məhsullarının il boyu ixracına yol açar. Bu, həm də ölkədə yeni iş yerlərinin açılması üçün imkanların yaranması deməkdir. Emal sənayesinin inkişaf etdirilməsi mövsüm zamanı istehsal olunan kənd təsərrüfatı məhsullarının itkisiz tədarük olunmasına da şərait yaradar".



Azər Badamov

DÖVLƏT YOX, SAHİBKAR YARATMALIDIR

A.Badamovun sözlərinə görə, emal sənayesinin inkişafı sahibkarların üzərinə düşən məsələlərdəndir: "Məhz emal sənayesinin lazımı səviyyədə inkişaf etməməsi nəticəsində kənd təsərrüfatı məhsullarının mövsüm zamanı qiymətləri çox aşağı olur. Fermerlər vaxtında tədarük edə bilmədikləri üçün böyük itkilərlə qarşılaşırlar. Emal sənayesinin yaradılmasını dövlət həyata keçirməməlidir. Bu işi sahibkarlar etməlidirlər. Dövlət sahibkarlığın inkişafına kifayət qədər dəstək göstərir. Amma təəssüf ki, nədənsə sahibkarlar emal sənayesinin inkişaf etdirilməsində çox da maraqlı deyillər".

İqtisadçı Cəfər İbrahimli bildirdi ki, pomidor ixracımız əslində statistikada göründüyü qədər azalmayıb: "Pul dəyəri ilə ixracda azalma görünür. Amma miqdar dəyəri ilə hesablayanda o qədər də azalma yoxdur. Bu azalma 2,5 faizə yaxındır. Bu hal xüsusilə son illərdə daha çox müşahidə edilir. "Rosselxoznadzor" bəzi malların geri göndərilməsinə qərar vermişdi. Sertifikasiya məsələlərindəki problemlər və qida ilə bağlı təhlükəli normalar ixracın azalmasına təsir göstərib".



6,83% azalma

YARANMIŞ FÜRSƏTLƏRİ DƏYƏRLƏNDİRMƏK LAZIMDIR

C.İbrahimli düşünür ki, Rusiyaya pomidor ixracını daha da artırmaq üçün fürsətləri dəyərləndirmək lazımdır: "Rusiya rəsmiləri açıqladı ki, daha çox ixrac olunan məhsulları, həmçinin pomidoru gömrük vergisindən azad etdilər. Rusiyada bu məhsula olan tələbin artacağı gözlənilir. Sahibkarlar bu imkanlardan yararlanıb, istehsal həcmlərində artıma gedə bilərlər. Kənd təsərrüfatı, xüsusilə də pomidor istehsalı və emalı məsələlərinə dövlət tərəfindən kifayət qədər güzəşt və subsidiyalar ayrılıb".

XƏSTƏLİKLƏR İSTİXANALARI MƏHV EDİB?

Sahibkar Eldar Hüseynov da ixracın azalmasına aydınlıq gətirdi: "Azalmanın birinci səbəbi Rusiya rublunun dəyərini itirməsidir. İkinci səbəb odur ki, Rusiyanın hələ ki, öz malı var idi və tələbat da həddən artıq azalmışdı. Daxildə olan məhsullarımızda isə xəstəlik aşkarlandı. Ölkəyə gətirilən toxumlarda virus mövcud idi. Bu xəstəliklər də istixanaları məhv etdi. Ona görə ölkədən ixrac edilən məhsullar keçən ilə nisbətən azaldı".

E.Hüseynovun sözlərinə görə, artıq daha fərqli sortların yetişdirilməsinə ehtiyac var: "Rusiya hökuməti böyük maliyyə ayırıb və artıq özləri pomidor istehsalına başlayırlar. Yaxın beş ildə Rusiyanın ixrac məhsullarına ehtiyacı qalmayacaq. Artıq özləri istehsal edə biləcəklər. Bu səbəbdən bizim əkinçilər elə sortlar yetişdirməlidirlər ki, onlardan Rusiyada olmasın. Önümüzdəki illərdə Azərbaycanda istixanalara dotasiya verilməsə, əkin seqmenti dəyişdirilməsə, 3-4 ildən sonra Rusiyaya pomidor ixrac edə bilməyəcəyik".

ARTIQ BAZARDAN MƏHSUL ALINMIR

Müsahibimiz sahibkarların ixraca maraq göstərməməsi məsələsinə də toxundu. Bildirdi ki, ixrac zamanı ödəniş gec çatdığı üçün daxili bazar daha sərfəlidir: "Problem odur ki, Rusiya da artıq market alverinə keçib. Kimin marketlərlə müqaviləsi varsa, malını sata bilir. Kimin əlaqəsi yoxdursa, bazarda satır. O zaman da satılmayan məhsul məhv olur, atılır. Əsas məsələ ödənişdir. Sahibkara pul lazımdır ki, işçinin maaşını, gübrənin, qazın pulunu verə bilsin. Rusiyaya ixrac olunan malların ödənişi gecikdiyi üçün bəzi hallarda sahibkarlar məhsullarını daxili bazarda satmağa üstünlük verirlər".



Cəfər İbrahimli

AZƏRBAYCANLA TÜRKİYƏ ARASINDA ORTAQ TURİZM MARŞRUTLARI NƏ VAXT OLACAQ?

TURİZMDƏ ORTAQ MARŞRUTLAR



Azərbaycanla Türkiyə arasında ortaq turizm marşrutlarının yaradılması çoxdan müzakirə edilsə də, hələlik real nəticə yoxdur. Mütəxəssislər bu sahədə böyük potensialın olduğu qənaətindədirlər.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Azərbaycanla Türkiyə arasında ortaq turizm marşrutlarının yaradılması çoxdan müzakirə olunan mövzudur. Azərbaycan-Türkiyə Turizm üzrə Birgə Komissiyasının 2-ci iclasında ikitərəfli turizm əlaqələrinin mövcud vəziyyəti, turizm məhsulları və s. bir daha müzakirə olunub. Hesab edilir ki, turizm üzrə ixtisaslaşmış assosiasiyalar arasında əməkdaşlıq imkanlarının genişləndirilməsi də turizm əlaqələrinə öz töhfəsini verə bilər. Sadəcə, bu istiqamətdə təcrübə mübadiləsinin, qarşılıqlı fəaliyyətin və birgə təbliğat işlərinin görülməsinə ehtiyac var.

Təəssüf ki, komissiyanın iclasından keçən müddət ərzində iki ölkə arasında ortaq turizm məhsullarının yaranmasında hələ ki hər hansı işıq ucu görünmür. Səbəb nədir?

Dövlət Turizm Agentliyi məsələyə aydınlıq gətirərək bildirdi ki, komissiyanın iclasına əsasən 2024-cü il üçün birgə Fəaliyyət Proqramı artıq təsdiq olunub, o cümlədən iki ölkə arasında turizm sahəsində sazişin hazırlanması üzərində iş aparılır.

KÜTLƏVİ TURİZMİN YARADILMASI ÜÇÜN

Ümumiyyətlə, turizmçilər hesab edirlər ki, ölkələrimiz arasında ortaq turizm marşrutlarının olması ikitərəfli turist axınının çoxalmasına səbəb olur. Bu isə hər iki ölkə arasında mədəni, turistik əlaqələri sıxlaşdırmaqla yanaşı, iqtisadiyyata da mühüm töhfə verər.

Faktdır ki, hazırda azərbaycanlılar Türkiyənin ayrı-ayrı bölgələrinə səyahət etməyi digər ölkələrdən daha çox xoşlayırlar. Həm istirahət, həm təhsil turizmi ilə bizimkilər Türkiyə turizminə böyük töhfə verirlər. Amma müqayisədə türkiyəli turistlər nə istirahət, nə də təhsil turizmi üçün Azərbaycanı seçirlər. Hərçənd Türkiyənin Azərbaycandakı səfirinin turizm məsələləri üzrə müşaviri Muhittin Macit bu mövzuda danışmaq istəmədi: "Hələ ölkənizə yeni gəlmişəm".

DAHA ÇOX AZƏRBAYCANLILAR TÜRKİYƏYƏ GEDİR

Ölkəmizdə Türkiyə turizmi üzrə fəaliyyət göstərən turizm şirkətinin baş meneceri Emin Uzun də təsdiqləyir ki, hazırda daha çox azərbaycanlılar Türkiyəyə gedir. Türkiyə vətəndaşlarının turizm məqsədilə Azərbaycana gəlişi isə çox deyil: "Türkiyədən Azərbaycana daha çox biznes və işlə bağlı gəlirlər. Gəlmişkən də ölkəni gəzirlər. Turist kimi gələnlər təəssüf ki, çox azdır. Azərbaycandan Türkiyəyə gedən turistlərin sayı ortalama 150 000 civarındadır". Turizmçi hesab edir ki, iki ölkə arasında tarixi abidələr, dağ və dəniz turizmi, qastronomik turizmin inkişafı ilə bağlı ortaq marşrutların qurulması qarşılıqlı turist mübadiləsinə yol açar: "Ölkələrin turizm rəhbərlikləri bir araya gələrək ortaq memorandumlar imzalamalı, dövlət dəstəyi ilə təbiət, mədəniyyət, tarix və istirahət turizmləri üçün layihələr hazırlanmalıdır. Kütləvi turizmin yaradıla bilməsi üçün turoperatorlar və hava yolları şirkətləri ilə ortaq şəkildə hərəkət edilməlidir".





Vüqar Bayramov



Muhittin Macit



Ruslan Quliyev

Foto: Firuddin Səlimov
Global Media Group

BAKI-TBİLİSİ-QARS MARŞRUTU İŞƏ DÜŞSƏ...

Millət vəkili Vüqar Bayramov ümumiyyətlə, regional turizm marşrutlarının yaradılmasını turizmin inkişafında əsas trendlərdən biri hesab edir: "Bir sıra qonşu ölkələr birgə turizm marşrutlarının yaradılması ilə bağlı razılıq əldə ediblər. Xüsusən, Latın Amerikası, Avropa və bəzi Asiya ölkələrində belə trendlər daha çox müşahidə olunur. Bu cür marşrutlar daha çox turistin cəlb edilməsinə imkan yaradır". Millət vəkilinin fikrincə, Azərbaycan, Gürcüstan və Türkiyənin birgə turizm marşrutları yaratması imkanları böyükdür. Yəni bu istiqamətdə bir ideya Bakı-Tbilisi-Qars dəmiryolu xətti boyunca nəqliyyat turizm marşrutunun yaradılmasıdır. Bu marşrut turistlərin hər üç ölkədə olmasına imkan yaradacaq. Bu zaman həm Azərbaycan, həm Türkiyə, həm də Gürcüstanda mədəni və digər turizm məhsulları təklif edən şəhərlərdə dayanacaqlar olacaq. Nəticədə 1 və ya 2 həftəlik paketdən asılı olaraq, belə marşrutların təklif edilməsinə imkan yarana bilər.

YENİ MARŞRUTLAR NƏZƏRDƏ TUTMAQ LAZIMDIR

Turizmçi Ruslan Quliyevin fikrincə, Türkiyə ilə Azərbaycan arasında ortaq turizm marşrutlarının yaradılması və sistemli şəkildə inkişaf etdirilməsi çox əhəmiyyətlidir: "Pandemiyadan öncə Türk Dilində Danışan Ölkələr Şurası tərəfindən "Modern İpək Yolu Ortaq Tur Paketi" marşrutu hazırlanmışdı. Bu layihəyə Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan daxil idi, sonradan Özbəkistan da qoşuldu. 12 gecə-13 günlük turlar çərçivəsində ortaq tarixlərin öyrənilməsi, tarixi, təbiət və mədəni abidələrin ziyarəti və s. nəzərdə tutulurdu. 2020-ci ilə qədər buradan bir milyona yaxın turist axını gözlənirdi. Əslində hədəflər artıq 2025-ci ilədir. Bu, həmçinin avropalıların Türkiyədən şərq istiqamətində, Asiyadan qərb istiqamətinə gedişini nəzərdə tuturdu". Turizmçinin fikrincə, əsas problem mövcud olan marşrutların zaman-zaman yenilənməsi və dövlətin dəstəyinə, onun piar və marketinqinin düzgün aparılmasına ehtiyacın olmasıdır: "Təbii ki, yeni marşrutlar da nəzərdə tutmaq lazımdır. Məsələn, sağlamlıq turizmi ilə bağlı Azərbaycan və Türkiyə Avropanın Tarixi və Termal Şəhərlər Assosiasiyasının marşrutunda uğurla iştirak edir. Nədən Pamukkale-İzmir-Balçova, Qalalatı-Lənkəran kimi yerlərdə "Qardaşlaşmış termal şəhərlər" marşrutu təşkil olunmasın? Bu, eyni zamanda, həmin məkanların beynəlxalq aləmdə reklamlarına və gələcəkdə turistlərin cəlbinə təkan verər".



"Wİ-Fİ" QURĞULARI ALARKƏN BU MƏQAMLARA DİQQƏT ETMƏLİYİK

İNTERNETİMİZİN SÜRƏTİNİ AZALDAN SƏBƏBLƏR

Bir çoxlarımız bəzən istifadə etdiyimiz internetin sürətindən, yaxud davamlılığından şikayət edirik. Ekspertlər bildirirlər ki, bu məsələdə problem yaradan əsas məqamlardan biri də "Wi-Fi" qurğularıdır.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Bazara gətirilən sertifikatsız "Wi-Fi" qurğuları zəif və dayanıqsız yayım siqnalları ötürür, bu da keyfiyyətsiz internet xidmətinə gətirib çıxarır. Bu fikirlər İnformasiya Kommunikasiya Texnologiyaları Agentliyinin (İKTA) açıqlamasında yer alıb. İKTA vətəndaşları istifadə etdikləri avadanlıqların keyfiyyətindən əmin olmağa və sertifikatı olmayan modemlər ilə bağlı tənzimləyici quruma məlumat verməyə çağırıb. Bəs vətəndaşlar şəbəkə qurğuları alarkən əldə etdiyi avadanlığın keyfiyyətli olduğuna necə əmin ola bilər?

"UCUZ VƏ KEYFİYYƏTSİZ QURĞULAR SATILIR"

Azərbaycan İnformasiya və Kommunikasiya Texnologiyaları Sənayesi Assosiasiyası İctimai Birliyinin İdarə Heyətinin sədri Elvin Abbasov "Kaspi" qəzetinə açıqlamasında bildirdi ki, internetin keyfiyyətinə və sürətin azlığına təsir göstərən bir çox məqamlar mövcuddur: "Bunlardan ən vacibi də məhz şəbəkə paylayıcılarıdır. Onların keyfiyyətli olması internetin sürətində çox əhəmiyyətli yer tutur. Təəssüflər olsun ki, Azərbaycanda ucuz və keyfiyyətsiz olan bəzi qurğular satılır. Modem seçərkən diqqətli olmaq lazımdır. Nə qədər sürətli internet alsanız da, aparat keyfiyyətsiz olduğu halda daha zəif internet paylayacaq".

20-30 MANATLIQ AVADANLIQDAN GÖZLƏNTİLƏRİMİZ

İnformasiya təhlükəsizliyi üzrə mütəxəssis Fərhad Mirəliyevin sözlərinə görə, qiyməti orta olan məhsullar daha keyfiyyətli hesab edilir: "Bazarda satılan avadanlıqlara diqqət yetirsək, görərik ki, tanınmış istehsalçıların və bir də az tanıdığımız, adını ilk dəfə eşitdiyimiz şirkətlərin məhsulları mövcuddur. Mağazalarda bir neçə istehsalçının 20-30 manatdan 200-250 manata qədər evdə istifadə etdiyimiz internet paylayıcı qurğuları satılır. Funksionallığı eynidir. Amma ucuz olanlar zirzəmi şəraitində keyfiyyətsiz ehtiyat hissələrindən hazırlanır. Bizə tanış olan şirkətlərin məhsulları isə özünü daha yaxşı göstərir. Qiyməti orta seqmentdə olduqda cihaz daha keyfiyyətli ehtiyat hissələrindən hazırlanır və performansı yüksək olur. 20-30 manatlıq avadanlıqdan gözləntilərimiz elə də böyük olmamalıdır".

SERTİFİKATSIZ MƏHSUL ALDIQDA...

F.Mirəliyevin fikrincə, mütləq şəkildə bu avadanlıqların sertifikatı olmalıdır: "Azərbaycanda məhsul satmaq istəyən istehsalçılar avadanlıqlardan nümunələr təqdim edib məhsulları üçün uyğunluq sertifikatı almalıdırlar. Bu sertifikatın mahiyyəti ondan ibarətdir ki, dövlət orqanları səviyyəsində həmin avadanlıqlar test laboratoriyalarında yoxlanışdan keçəcək və onların bütün tələblərə cavab verməsi təsdiq olunacaq. Amma belə görünür ki, hazırda bazarda müxtəlif mənşəli avadanlıqlar satılır. Yekunda isə vətəndaşlar narazı qalırlar. Uyğunluq sertifikatı almış avadanlıqlar daha yüksək keyfiyyətli hesab edilir. Bir çox hallarda internet zəifliyinə görə vətəndaş müvafiq orqanlara şikayət ünvanlayır. Araşdırmalardan sonra məlum olur ki, səbəb avadanlıq imiş. Sertifikatsız məhsul aldıqda istehlakçı bütün məsuliyyəti öz üzərinə götürür".





Elvin Abbasov

Foto: Sabir Məmmədov Global Media Group

BUNLARI DA BİLMƏLİYİK

Ekspert qeyd etdi ki, aparat seçərkən bir neçə məqama diqqət etməliyik: "Hər avadanlığı qiymətinə görə dəyərləndirmək olmaz. Hansısa avadanlığı seçmişiksə, ilk növbədə istehsalçı ilə tanış olmalıyıq. Baxmalıyıq ki, bu aparatın öz ölkəsində dövlət standartlarına uyğunluğu varmı. Yaxud bizim dövlət orqanlarından sertifikat əldə edə bilibmi? Avadanlığın bütün texniki parametrləri araşdırılmalıdır. Texnologiya inkişaf edir, internetin sürəti artırılır. Yeni texnologiyalarla təchiz olunmuş aparatlar daha yüksək sürətlə çalışır. Neçə ötürücüsü var? Eyni anda neçə cihaza qoşulur? İstehsalçı öz məhsulunu neçə il dəstəkləyəcək? Yəni həmin avadanlıqda funksionallıq artırılacaq, yenilənmələr gələcək və paylayıcı daim aktiv olacaqmı?"

QİYMƏTİNİN FƏRQİ YOXDUR?

Şəbəkə qurğularının satışı ilə məşğul olan Müşfiq Rüstəmov isə dedi ki, alıcılar da sertifikat tələb etmir, aparatlarda da olmur: "Aldığınız məhsul tanınmış marka olduqda keyfiyyətli məhsul sayılır. Şəhərdə ən çox satılan 1-2 marka var. Onlar da kifayət qədər etibarlıdır. Aparatların üzərində sertifikat yoxdur. İnsanlar da bunu tələb etmirlər. Ucluqlarının sayı nə qədər çox olarsa, aparatın əhatə dairəsi o qədər genişlənir. Məsələn, 100 kvadratmetrlik evlərə bir ötürücü kifayət edir. Ucluq sayı artdıqca keyfiyyət daha güclü olur. Qiymətinin fərqi yoxdur. Qiymət yüksəldikcə yalnız imkanları genişlənir, menyusu artır. Daha bahalı avadanlıqları əsasən ofislərdə, şirkətlərdə quraşdırırlar. Ev üçün isə 20 manatlıq da, 200 manatlıqla eyni keyfiyyəti verir".



Fərhad Mirəliyev

AĞILLI TEXNOLOGİYALARA KEYFİYYƏTLİ PAYLAYICI LAZIMDIR

Müsahibimiz internet paketlərinin də nəzərə alınmalı olduğunu bildirdi: "Paylayıcı qurğuların internetin sürətində rolu böyükdür. Amma internet paketini də diqqətə almaq lazımdır. Hər bir abunəçi internet provayderi ilə müəyyən tarif çərçivəsində müqavilə bağlayır. Məsələn, 30- 100 megabit sürətli internet paketi seçir. Elə provayderlər var ki, vətəndaşı aparatla da təmin edirlər. Amma eləsi də var ki, istifadəçi özü avadanlıq almalı olur. Bəzən də vətəndaş provayderin verdiyi avadanlığı bəyənmir və özü daha yaxşısını quraşdırır. Yüksək sürətli internet paketi seçib, ucuz və keyfiyyətsiz paylayıcı istifadə etsəniz, keyfiyyətli internet ala bilməyəcəksiniz. Evdə istifadəçi sayı çoxaldıqca sürət daha da zəifləyəcək. Yaxud yüksək sürət tələb edən yerlərə daxil olduqda problemlər yaşayacaqsınız".

MÜXTƏLİF ÖLKƏLƏRDƏ ERKƏN QOCALMANI LƏNGİDƏN LAYİHƏLƏR İCRA EDİLİR

ÜÇÜNCÜ BAHARIN ƏYLƏNCƏSİ

İnsan yaşla bağlı təqaüdə çıxanda onun sosial vəziyyəti, cəmiyyətdə, ailədəki rolu dəyişir. Bu qeyri-müəyyənlik çox vaxt yaşlıların psixoloji vəziyyətlərinə mənfi təsir göstərir. Ona görə də onları bu durumdan çıxarmaq üçün müxtəlif layihələr icra olunur.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Dünyada yaşlı insanların sayı getdikcə artır. İnsan yaşla bağlı təqaüdə çıxanda onun sosial vəziyyəti, cəmiyyətdə, ailədəki rolu dəyişir. Bu qeyri-müəyyənlik çox vaxt yaşlı insanların psixoloji vəziyyətlərinə mənfi təsir göstərir. Onlar hiss edirlər ki, həyat təcrübələrinə, biliklərinə, istedadlarına daha əvvəlki kimi tələbat yoxdur. Bu durumlarda onlara təcili olaraq ünsiyyət, faydalılıq hissi və bəzi işlərdə iştirak lazımdır. Təbii ki, yaşlı bir insana xəstəlik və maddi çətinliklərə baxmayaraq, yaşamaq və gündəlik problemləri həll etmək, sürətlə dəyişən dünyada öz yerini tapmaq və yeni sosial münasibətləri idarə etmək üçün güc qazanmasına kömək etmək asan məsələ deyil. Psixoloqlar və həkimlər də qeyd edirlər ki, ünsiyyətdən məhrum olan yaşlı insanlar aktiv sosial həyat tərzi keçirən təqaüdçülərlə müqayisədə depressiyadan, psixi pozğunluqdan və erkən qocalmadan daha çox əziyyət çəkirlər.

SAĞLAM HƏYAT TƏRZİNİN TƏŞVİQİ

Dünyanın əksər ölkələrində yaşlı insanlara yönələn, sağlam həyat tərzini təşviq edən layihələr icra olunur. Məsələn, onların psixososial problemlərinin həllinə kömək etmək üçün ünsiyyət klubları şəbəkəsi, dərnəklər və s. yaradılır. Yaşlı insanlar üçün maraq klubları həmçinin pensiyaçıları sağlamlıq ekskursiyaları, oyunlar, əyləncələr, rəqslər, müalicəvi və profilaktik məşqlərdə iştirak etməyə dəvət edir. Qocalar krossvord həll etməyi, radio dinləməyi, qəzet-jurnal, kitab oxumağı sevirlər. Stolüstü oyunlar isə təqaüdçülərin ən sevimli məşğuliyyətlərindən biridir. Bu cür fəaliyyətlər sayəsində fərdlər bir komandada birləşir, təkliklərini unudur, öz aralarında ünsiyyət qururlar. Hətta xarici təcrübədə sevib ailə quran qocalar da olur.



DEMENSİYADAN ƏZİYYƏT ÇƏKƏNLƏR ÜÇÜN

İngiltərənin Exeter Universitetinin alimlərinin bu istiqamətdə tədqiqatları da maraqlıdır. Onlar piano çalmağın və xorda oxumağın gözlənilməz sağlamlıq təsirlərini qocalar üzərində üzə çıxarıblar. Alimlər qocaların beyin sağlamlığını, o cümlədən planlaşdırma, konsentrasiya, yadda saxlama vərdişlərinə kömək edən zehni prosesləri də araşdırıblar: "Hər hansı musiqi alətində ifa etmək yaddaşı yaxşılaşdırmağa kömək edir. Xüsusən, demensiyadan əziyyət çəkən yaşlı insanlar üçün musiqi qruplarının faydalarına dair əhəmiyyətli sübutlar var". Bu baxımdan İngiltərədəki qocalar evlərinin hər biri musiqi alətləri ilə təchiz olunub, ahıllar üçün mütəmadi küçə konsertləri və musiqili layihələr həyata keçirilir.

"UZUNÖMÜRLÜLÜK" LAYİHƏSİ

"Moskva uzunömürlülük" layihəsində iştirak edən pensiyaçıların ümumi sayı isə 5 il ərzində yarım milyon nəfəri keçib. Layihənin əsasını 65-75 yaşlı sakinlər təşkil edirlər ki, onların 85 faizi qadınlardır. Qocalar layihə ilə həyatlarının necə müsbət dəyişdiyini, ruhlarının necə cavanlaşdığını həyəcanla danışırlar. Rəqs bu layihə iştirakçılarının üstünlük verdiyi populyar sahələrdən biridir. Maraqlısı odur ki, sevimli istiqamətlərin vektoru dəyişir, əgər əvvəllər nordic gəzintisi (çubuqlarla gəzinti) lider idisə, indi yaşlı insanlar bədən və ağıl üçün bədən tərbiyəsini seçirlər. Keçən yay layihənin ən populyar istiqaməti "Gəzinti" və "Mühazirə zalı" olub. Gümüş yaşda olan insanlar fiziki və əqli hazırlıqla məşğulluğa üstünlük verirlər. Mütəxəssislər qocalarla bağlı kəndlərdə vəziyyətin daha çətin olduğunu bildirirlər. Belə ki, kənd mədəniyyət ocaqlarının işi ilk növbədə gənclərə yönəlib.

BEYNƏLXALQ TƏCRÜBƏNİN ÖYRƏNİLMƏSİ

Bizim ölkəmizdə də yaşlı insanların istirahəti, asudə vaxtlarının təşkili üçün hansı işlərin həyata keçirildiyi ilə maraqlandıq.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən sorğumuza verilən cavabda bildirilir ki, son illər ölkədə sosial müdafiə sahəsinin təkmilləşdirilməsi, xüsusi qayğıya ehtiyacı olan şəxslərə dövlət dəstəyinin əhatəliliyinin və əlçatanlığının artırılması yönündə davamlı addımlar atılır, proqramlar icra olunur: "Həyata keçirilən tədbir və layihələrin əsas məqsədi ahılların fiziki aktivliyinin qorunması, istedad və bacarıqlarının inkişafı, yay fəslində istirahətlərinin səmərəli təşkil olunmasıdır".



Natəvan Yusifova

ƏƏSMN tabeliyində Sosial Xidmətlər Agentliyi tərəfindən mütəmadi olaraq imtiyazlı şəxslərin sanatoriya-kurort və müalicə mərkəzlərinə göndərilməsi də təmin edilir. Belə ki, agentliyin bütün ölkəni əhatə edən filial və müəssisələri ilə bütün yaş kateqoriyalarından olan əhaliyə səyyar, stasionar və yarımstasionar xidmətlər göstərilir: "Tədbirlər Planında 2024-2026-cı illərdə bu sahədə qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi və ölkəmizdə tətbiqi ilə bağlı müvafiq tədbirlərin görülməsi nəzərdə tutulur".

ARTIQ QOCALARIMIZ DA DƏYİŞİB

"Üçüncü Bahar" İctimai Birliyinin həmtəsisçisi Natəvan Yusifova təşkilatın Bakı, Şamaxı və Mingəçevir şəhərlərindəki mərkəzlərinin 60 yaşdan yuxarı 6 minə yaxın ahıl insanı birləşdirdiyini deyir: "Hər gün mərkəzlərdə müxtəlif mövzularda dərnəklər təşkil olunur. Toxuculuq, qurama, əl işləri, poeziya, idman və yoqa dərsləri beynin daha uzun müddətə fəaliyyətdə qalmasını təmin edir, müəyyən qədər demensiyanın qarşısını alır. Ahıl insanların hər biri öz marağına uyğun olaraq dərnəklərə yazılırlar. Onların psixoloqlarla da görüşləri keçirilir. Bizim qocalar təqaüdə çıxandan sonra bir çox hallarda passiv həyat tərzi keçirirlər. Hətta çoxu oturub ölümünü gözləyir. Ancaq ahıllar bu mərkəzlərdə vaxtlarını səmərəli keçirirlər. İndiki yeniliklərə adaptasiya olunur və fəal həyat tərzini davam etdirməyə başlayırlar. Regionlarda onların mərkəzlərə cəlbi də uğurla həyata keçirilir. Düzdür, Şamaxıda bu istiqamətdə bir qədər maneələrlə qarşılaşdıq. "Qadınlar evdə oturmalıdır", ya da "kişilər ayrı, qadınlar ayrı gəlməlidir" kimi tələblər vardı. Ancaq bir həftədən sonra məsələ həllini tapdı". Həmtəsisçi hesab edir ki, qocalara yönələn bu tip layihələrin genişləndirilməsinə və bütün regionları əhatə etməsinə ehtiyac var: "Artıq qocalarımız da dəyişib. Onlar evdən çıxmaq istəyirlər. Ona görə də ahıl insanlara yönələn layihələrin miqyası genişlənməlidir".

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
24 FEVRAL ŞƏNBƏ 2024 www.kaspi.az

QƏTİN OLDU, AMMA BACARDIQ

“Qarabağ” Avropa Liqasının 1/8 finalına vəsiqəni təmin etdi. Özü də tarixində ilk dəfə. Başqa sözlə desək, ağdamlılar Azərbaycan futbol tarixini yazmaqda davam edirlər.



Foto: Səbinə Şəbiyeva
Global Media Group

Gözlədiyimiz kimi də oldu. UEFA Avropa Liqasının pley-off mərhələsinin cavab oyununda təmsilçimiz “Qarabağ” klubunun işi heç də asan olmadı. Əslində Tofiq Bəhramov adına Respublika Stadionunda hər şey yaxşı başlamışdı.

Futbolçularımız oyunun əvvəlindən “Braqa”nın oyunçularına göz açmağa imkan vermir, rəqib qapısının qarşısında bir-birinin ardınca təhlükəli vəziyyətlər yaradırdılar. Bütün birinci hissə bu ssenari ilə keçdi. “Qarabağ” hücum etdi, “Braqa” səbirlə müdafiə olundu. Ta ki, Elvin Cəfərquliyevin bir neçə dəqiqə ərzində 2 sarı vərəqə alaraq meydanı tərk etməsinə kimi.

ƏSL DRAM BUNDAN SONRA BAŞLADI

Əsl dram bundan sonra başladı. Rəqib oyunun əsas vaxtında qapımızdan iki qol keçirərək ümumi hesabı bərabərləşdirməyi bacardı. Əlavə vaxtda komandamız bir dəfə qol vurub ümumi hesabı xeyrimizə dəyişsə də, rəqib yenidən penalti qolu ilə geri dönüş etdi. Amma meydanda azlıqda mübarizə aparan “Qarabağ” əlavə vaxtın son dəqiqəsində Nəriman Axundzadənin vurduğu gözəl qolla ümumi hesabı 6:5 öz xeyrinə dəyişərək Avropa Liqasının 1/8 finalına vəsiqəni təmin etdi. Özü də tarixində ilk dəfə. Başqa sözlə desək, ağdamlılar Azərbaycan futbol tarixini yazmaqda davam edirlər. Həqiqətən də Avropanın ikinci klub turnirində son 16 komandanın arasında daxil olmaq fantastik nəticədir.

UEFA AVROPA LİQASI

PLEY-OFF MƏRHƏLƏSİNİN CAVAB OYUNU

“Qarabağ” (Azərbaycan) - “Braqa” (Portuqaliya) - 2:3

Qollar: Rojer Fernandes, 70 (0:1),
Alvaro Djalo, 83 (0:1),
Mateus Silva, 102 (1:2),
Simon Banza, 115-pen. (1:3),
Nəriman Axundzadə, 120+2 (2:3)

Qırmızı vərəqə: Elvin Cəfərquliyev, 57 (“Qarabağ”)

Bakı. Tofiq Bəhramov adına Respublika Stadionu

6 VS 5

“QARABAĞ”IN MADDİ QAZANCI

Qardaş Türkiyənin büdcəsi “Qarabağ”ı dəfələrlə qabaqlayan “Qalatasaray” klubu Praqada “Sparta” səddini keçə bilməyib mübarizəni dayandırdı. Beləliklə, bu mərhələdə Türkiyənin heç bir klubu olmayacaq. Keçmiş SSRİ respublikalarını təmsil edən heç bir klub da bu mərhələyə vəsiqə qazan bilmədi. “Qarabağ” isə məhdud büdcəyə, Azərbaycan çempionatının aşağı səviyyəsinə baxmayaraq, bunu bacardı. Bu qələbə komandanı bir az da böyüdəcək və maddi baxımdan da xeyli gəlir gətirəcək. Qurban Qurbanovun komandası növbəti tura keçdiyi üçün 1,2 milyon avro (2 milyon 194 min 800 manat) irəli düşüb. Bundan əlavə, Azərbaycan təmsilçisi UEFA-dan televiziya yayımına görə də ödəniş alacaq.

QURBAN QURBANOV: “BU GÜN MEYDANDA DÖYÜŞÇÜLƏR VAR İDİ”

Oyundan sonra keçirilən mətbuat konfransında “Qarabağ”ın baş məşqçisi Qurban Qurbanov futbolçularına və azarkeşlərə təşəkkür edib: “Bu gün meydanda döyüşçülər var idi. Elə əziyyət çəkdik ki, sonda Allah bizə bu cür qalibiyyət nəsib etdi”. Baş məşqçi ikinci hissənin əvvəlində meydanda azlıqda qalmalarının oyunun gedişinə təsir etdiyini bildirib: “Bəlkə epizodlarda mən də aqressivlik göstərdim. Bir-iki dəqiqəyə iki sarı vərəqə vermək nə dərəcədə düzgündür? Hakimin birdən-birə komandanı ruhdan salması mənə də təsir etdi. Amma bunların faydası var. Futbol elədir ki, dözümlü olmalısan. Azərbaycan futbolu və futbolçular, klublar üçün bu oyunlar böyük təcrübədir. Futbol sona qədər oynanılan oyundur. Azlıqda da ola bilərsən, amma yenə də iradə və dözüm çox vacibdir. Məğlub olsaq da, qazandığımız çox şey olacaqdı. Zəfər çalmaq daha ləzzətli oldu”.

O, əzmkarlıqlarının və xarakter göstərmələrinin sayəsində oyunda dönüş edə bildiklərini qeyd edib: “0:2-dən sonra istəyirdim ki, 90 dəqiqə qol buraxmayaq. Əlavə vaxta hazırlaşanda, futbolçulara bir söz dedim ki, biz geri çəkilməməliyik. Nə olursa olsun, məğlubiyyət haqda düşünməməliyik. Dedim ki, uduzsaq da, rəqibin üzərinə getməliyik. Futbolçular inamla oynadılar, çəkinmədilər və sonda da Nəriman qol vurdu”.

Q.Qurbanov növbəti mərhələdə də şansdan istifadə etməyə çalışacaqlarını bildirib: “İstənilən turnirdə şansımız varsa, maksimum istifadə edəcəyik”.

“SƏHVLƏRİMİZ CÜTÜN TALEYİNİ HƏLL ETDİ”

“Braqa”nın baş məşqçisi Artur Jorje isə birinci oyunda qeydə alınan nəticənin onlara problem yaratdığını vurğulayıb: “İlk oyunda neqativ nəticə qeydə alınmışdı. Buraya məğlub durumda gəlmişdik. 90 dəqiqə ərzində ümumi hesabda tarazlıq yaratdıq. Komanda yaxşı işlədi, vuruşdu, mübarizə apardı. Bəzi səhvlərə yol verdik. Onlar olmamalıydı. Həmin səhvlər cütün taleyini həll etdi”.

Mütəxəssis bildirib ki, tez bir zamanda bərpa olmalı və yollarına davam etməlidirlər: “İlk oyunda qeydə alınan həmin nəticə bizi burada qələbə qazanmağa məcbur edirdi. Qalib gəldik. Amma bu, mərhələ keçmək üçün yetərli olmadı”.

Artur Jorje Nəriman Axundzadənin son dəqiqələrdə vurduğu qolun ona daha çox təsir etdiyini söyləyib: “Heyətdə bəzi dəyişikliklər etmişdim. Buna məcbur idik. Heyətdə daha hazır oyunçular olmalı idi. Ümumi hesabı bərabərləşdirə bilmişdik. Mənə ən çox təsir edən buraxdığımız ikinci qol oldu. Belə səviyyəli yarışda belə qol buraxmaq, bağışlanmaz səhvdir”.



NÖVBƏTİ RƏQİB “BAYER” OLDU

Qeydə edək ki, fevralın 23-də Avropa Liqasının 1/8 final mərhələsinin püşkü atılıb. Püşkatma zamanı Ağdamın “Qarabağ” klubunun da rəqibi müəyyənləşib. Belə ki, ağdamlılar bu mərhələdə “Bayer” (Almaniya) klubu ilə qarşılaşacaq. “Köhlən atlar” ilk matçını martın 7-də evdə, cavab qarşılaşmasını martın 14-də səfərdə keçirəcək.